AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
Akademik Ə. QULİYEV adına AŞQARLAR KİMYASI İNSTİTUTU

AKADEMİK ƏLİ MUSA OĞLU QULİYEVİN 110 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ "MÜXTƏLİF TƏYİNATLI ÜZVİ MADDƏLƏR VƏ KOMPOZİSİON MATERİALLAR" MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSI

MƏRUZƏLƏRİN TEZİSLƏRİ

I H İ S S Ə

Bakı – 2022

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

Akademik Ə. QULİYEV adına AŞQARLAR KİMYASI İNSTİTUTU

AKADEMİK ƏLİ MUSA OĞLU QULİYEVİN 110 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ "MÜXTƏLİF TƏYİNATLI ÜZVİ MADDƏLƏR VƏ KOMPOZİSİON MATERİALLAR" MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSI

MƏRUZƏLƏRİN TEZİSLƏRİ

Bakı – 2022

ƏLİ MUSA oğlu QULİYEV

Akademik, k.e.d., prof. əməkdar elm xadimi,

Azərbaycan və iki dəfə SSRİ Dövlət mükafatı laureatı

(1912 – 1989)

KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

SƏDR:

Fərzəliyev V. *akad.*, AMEA Aşqarlar Kimyası İnstitutunun baş direktoru

MƏSUL KATİB:

Səfərova M. *k.ü.f.d., dos.,* AMEA Aşqarlar Kimyası İnstitutunun elmi katibi

ÜZVLƏR:

Abbasov V. *akad.,* AMEA Neft Kimya Prosesləri İnstitutunun baş direktoru

Abdullayev Y. *k.ü.f.d., dos.,* Bakı Mühəndislik Universitetinin "Kimya mühəndisliyi" kafedrasının müdiri

Ağayev Ə. *k.e.d.,prof.* Sumqayıt Dövlət Universitetinin professoru

Babanlı M. *AMEA-nın müxbir üzvü*, AMEA Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun icraçı direktoru

Əliyev A. *akad.,* AMEA Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun şöbə müdiri

Əliyev F. *akad.,* AMEA Gəncə Elmi Bölməsinin sədri

Əlimərdanov H. *AMEA-nın müxbir üzvü,* AMEA Neft Kimya Prosesləri İnstitutunun şöbə müdiri

Əmirov F. *tex.e.d., prof.*, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Üzvi maddələr və yüksəkmolekullu birləşmələrin texnologiyası" kafedrasının müdiri

Hacıyeva S. *k.e.d., prof.,* Bakı Dövlət Universitetinin "Ekoloji kimya" kafedrasının müdiri

Kərimli F. *k.ü.f.d., dos.,* Bakı Dövlət Universitetinin Kimya fakültəsinin dekanı

Qarayev E. *k.e.d., prof.*, Azərbaycan Tibb Universitetinin "Ümumi və toksikoloji kimya" kafedrasının müdiri

Quliyev F. *k.e.d*., *prof.*, Azərbaycan Tibb Universitetinin professoru

Quliyev K. *k.e.d, prof.*, AMEA Polimer Materialları İnstitutunun icraçı direktoru

Məcidov Ə. *akad.,* AMEA Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun şöbə müdiri

Məhərrəmov A. *akad.,* Bakı Dövlət Universitetinin "Üzvi kimya" kafedrasının müdiri

Məmmədov B. *AMEA-nın müxbir üzvü*, AMEA Polimer Materialları İnstitutunun baş direktoru

Məmmədov İ. *k.e.d., prof.,* Bakı Dövlət Universitetinin "Neft kimyası və kimya texnologiyası" kafedrasının müdiri

Mürsəlov N. *tex..e.d., dos.,* AMEA Neft Kimya Prosesləri İnstitutunun icraçı direktoru

Sucayev Ə. *k.e.d., dos.,* AMEA Aşqarlar Kimyası İnstitutunun icraçı direktoru

Verdizadə N. *k.e.d.,* Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru

Yusibov Y. *k.e.d., prof.,* Gəncə Dövlət Universitetinin rektoru

Zalov Ə. *k.e.d., dos.*, Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Analitik və fiziki kimya" kafedrasının müdiri

REDAKSİYA HEYƏTİ

akad. **V.M.Fərzəliyev** (baş redaktor)

k.ü.f.d., dos. **M.R.Səfərova** (məsul katib)

k.e.d., dos. **Ə.R.Sucayev**

t.e.d.,prof. **H.Ə.Cavadova**

k.e.d., prof. **P.Ş.Məmmədova**

k.ü.f.d., dos. **M.Ə.Musayeva**

k.ü.f.d. **T.C. Cəfərova**

Göstərdikləri köməkliyə görə "Patent tədqiqatları, innovasiyalar və üzvi kimya sahəsində elmi işlərin proqnozlaşdırılması" laboratoriyasının əməkdaşlarına təşəkkür edirik.

Əli Musa oğlu Quliyev üzvi kimya, neft kimyası və neft emalı sahəsində görkəmli alim, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, respublikanın əməkdar elm xadimi, Azərbaycan və iki dəfə SSRI Dövlət mükafatı laureatı, kimya elmləri doktoru, professor, AMEA Aşqarlar Kimyası İnstitutunun (AKİ) keçmiş direktorudur.

Ə.M.Quliyev şərəfli yaradıcılıq yolu keçərək, sıravi ibtidai kənd müəllimliyindən görkəmli alim səviyyəsinə yüksəlmişdir. Onun 1937-ci ildən sonrakı bütün həyatı və elmi fəaliyyəti Kuybışev adına Azərbaycan Elmi-Tədqiqat Neft İnstitutu (AzETNİ) ilə bağlı olmuş, sonralar onun əsasında yaradılan Azərbaycan Elmlər Akademiyası Neft Kimya Prosesləri İnstitutunda (NKPİ) və AKİ-də çalışmışdır.

Ə.M.Quliyev 1934-cü ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuş, 1939-cu ildə universiteti fərqlənmə diplomu ilə bitirmiş, Dövlət imtahan komissiyasının qərarı ilə üzvi kimya kafedrasına assistent vəzifəsinə təyin edilmişdir.

Ə.M.Quliyev tələbə ikən, 1937-ci ildə V.V.Kuybışev adına AzETNİ-də elmi fəaliyyətə başlamışdır.

Böyük Vətən müharibəsi illərində Ə.M.Quliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə o dövrdə çox mühüm əhəmiyyəti olan tank əleyhinə yandırıcı butulka ampulalarının resepti hazırlanmış və müvəffəqiyyətlə sınaqdan keçirilmişdir. O, həmçinin yanğın törədən döyüş sursatlarının reseptini hazırlayaraq onların istehsalını təşkil etmiş, geniş miqyasda mühüm dərman maddələri və yuyucu vasitələr, yeni katalitik proseslər işləyib hazırlamışdır. Ə.M.Quliyevin bilavasitə iştirakı ilə aviasiya benzininin yüksək oktan ədədli komponenti olan alkilbenzolun alınma texnologiyası işlənib hazırlanmış və sənayedə istehsalı təşkil edilmişdir.

Dövlət tapşırıqlarını yüksək səviyyədə yerinə yetirdiyinə görə o, «Şərəf nişanı» ordeni, «Qafqazın müdafiəsi uğrunda», «1941-1945-ci illər Böyük Vətən müharibəsində əmək rəşadətinə görə» və s. medallarla təltif edilmişdir.

40-cı illərdə texniki tərəqqi xalq təsərrüfatımızın bütün sahələrində maşın və mexanizmlərin təkmilləşməsinə və sayının artmasına gətirib çıxartdı. Bu isə sürtkü materiallarının və xüsusən, sürtkü yağlarının keyfiyyətinin yüksəldilməsi problemini çox kəskin şəkildə qarşıya qoydu. Neft kimyasında yeni istiqamət – sürtkü yağlarına aşqarlar kimyası elminin formalaşması başladı.

Bu sahədə tədqiqatlar sənaye cəhətdən inkişaf etmiş dövlətlərdə XX yüzilliyin 30-cu illərinin başlanğıcından, keçmiş SSRİ, o cümlədən Azərbaycanda 30-cu illərin sonlarında başlandı.

Aşqarların sintezi və tətbiqi sahəsində məqsədyönlü tədqiqatlar aparmaq üçün Y.H.Məmmədəliyevin təklifi ilə 1945-ci ildə Kuybışev adına AzETNİ-də o vaxt gənc alim olan akademik Ə.M.Quliyevin rəhbərliyi ilə ixtisaslaşmış laboratoriya yaradıldı. İlk dəfə bu kollektiv tərəfindən aparılan fundamental tədqiqatlar ölkəmizdə aşqarların sənaye istehsalının təməlini qoydu.

Tezliklə bu laboratoriya tərəfindən SSRİ-də ilk dəfə olaraq bir sıra aşqarlar yaradıldı və istehsalata tətbiq edildi.

Aşqarların işlənib hazırlanması və sənayeyə tətbiqi sahəsindəki xidmətlərinə görə Ə.M.Quliyev bir sıra əməkdaşları ilə birlikdə 1948 və 1950-ci illərdə SSRİ Dövlət mükafatına layiq görüldü.

Laboratoriyada müxtəlif növ aşqarların işlənib hazırlanması və sənayedə tətbiq edilməsi sahəsində aparılan intensiv tədqiqatlarla yanaşı, aşqarlar kimyası sahəsində fundamental tədqiqatlar da başlandı.

Problemin vacibliyini və aşqarların yaradılması və tətbiqində əldə edilmiş nailiyyətləri, həmçinin aşqarlar kimyasının fundamental məsələləri üzrə əldə edilmiş mühüm elmi nəticələri nəzərə alan SSRİ-nin görkəmli alimlərinin təklifi ilə 1965-ci ildə AEA NKPİ-nin aşqarların sintezi və texnologiyası laboratoriyasının əsasında ölkəmizdə ilk ixtisaslaşmış Aşqarlar Kimyası Institutu yaradıldı.

Akademik Ə.M.Quliyev institutun təməlini qoymuş, onun təşkilatçısı və 1987-ci ilədək fasiləsiz direktoru olmuşdur. Akademik Ə.M.Quliyevin rəhbərlik etdiyi illər ərzində institut aşqarlar kimyası sahəsində görkəmli nailiyyətlər qazanmışdır.

İnstitutda Ə.M.Quliyevin rəhbərliyi ilə sürtkü yağları, yanacaq və yağlayıcı-soyuducu mayelərə aşqarların yaradılması və onların istehsal texnologiyasının hazırlanması sahəsində aparılan geniş tədqiqatlar nəticəsində yüksək təsirli yeni aşqarlar və müxtəlif növ sürtkü yağları, xüsusi mayelər yaradılmışdır. İnstitutun işləmələri Sumqayıt, Bakı, Ufa, Perm, Sankt-Peterburq, Nijniy-Novqorod və Yaroslavl kimi sənaye şəhərlərində tətbiq edilmişdir. SSRİ-də istehsal olunan aşqarların ümumi həcminin 20%-i AKİ-nin alimləri tərəfindən yaradılmış aşqarların payına düşürdü. AKİ-nin yaratdığı aşqarların istehsalını təşkil etmək üçün Sumqayıt şəhərində xüsusi ixtisaslı Aşqarlar zavodu təşkil edilmişdi. O dövrdə Bakı Neft Emalı zavodunda istehsal olunan bütün motor yağları AKİ tərəfindən və onun aşqarları əsasında yaradılmışdır.

Keçmiş İttifaqda istehsal edilən bəzi xüsusi təyinatlı mühərriklərin və transmissiya sistemlərinin normal işləməsini təmin edən sürtkü yağları da akademik Ə.M.Quliyevin bilavasitə rəhbərliyi və iştirakı ilə AKİ tərəfindən onun aşqarları əsasında yaradılıb. Strateji əhəmiyyətli bu yağlar hal-hazırda da respublikanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Akademik Ə.M.Quliyev və əməkdaşları 1971-ci ildə Bakı neftlərindən alınan motor yağlarının keyfiyyətini yüksəldən yeni aşqarların sintezi, texnologiyasının hazırlanması, sənayedə tətbiqi və onların əsasında sürtkü kompozisiyaları yaratdıqlarına görə Azərbaycan SSR Dövlət mükafatına layiq görüldülər.

Ə.M.Quliyev naftalan neftini sistematik olaraq uzun müddət tədqiq edərək onu müasir fiziki və kimyəvi üsullarla öyrənmişdir. Xromatoqrafiya üsulu ilə naftalan nefti ayrı-ayrı fraksiyalara ayrılmış və onların karbohidrogen tərkibi müəyyən edilmişdir. Kompleks şəkildə aparılmış tədqiqatlardan məlum olmuşdur ki, əsas müalicə funksiyası daşıyan yüksək fizioloji aktivliyə malik komponent naften karbohidrogenləridir. Naftalan neftindən naften karbohidrogenlərini almaq üçün xüsusi istehsal texnologiyası işlənib hazırlanmış və bu proses institutun təcrübə zavodunda istehsalata tətbiq edilmişdir.

Akademik Ə.M.Quliyevin elmi fəaliyyəti həmişə pedaqoji iş ilə bilavasitə əlaqədar olmuşdur. O, 1939-cu ildən 1974-cü ilə qədər elmi-tədqiqat işləri ilə yanaşı Azərbaycan Dövlət Universitetində müəllimlik edərək, respublikamızda yüksək ixtisaslı kimyaçı kadrların hazırlanması işinə böyük əmək sərf etmişdir.

Akademik Ə.M.Quliyev 50 illik elmi fəaliyyəti ilə aşqarlar kimyası sahəsində elmi məktəb yaratmışdır. Onun məktəbinin yetirmələri sırasında 19 elmlər doktoru, 60-dan çox elmlər namizədi var. Bu kadrların bir çoxu hal-hazırda respublikamızın elm, tədris və digər müəssisələrində çalışaraq respublika elm və iqtisadiyyatının inkişaf edib möhkəmlənməsinə xidmət edir.

1974-cü ildə Ə.M.Quliyevə respublika kimya elminin inkişafı və elmi kadrların yetişdirilməsi sahəsindəki xidmətlərinə görə Azərbaycan SSR əməkdar elm xadimi adı verilmişdir.

Ə.M.Quliyev neft kimyası, aşqarlar kimyası və üzvi kimyanın mühüm problemlərindən bəhs edən 600-dən çox elmi əsərin, o cümlədən 200-ə yaxın ixtira və 10 monoqrafiyanın müəllifidir. 1972-ci ildə çapdan çıxan «Yağlara və yanacaqlara əlavə edilən aşqarların kimyası və texnologiyası» monoqrafiyası Çexoslavakiyada slovak və Macarıstanda macar dillərinə tərcümə olunmuşdur.

Ə.M.Quliyev dəfələrlə kimya elmimizi bir sıra xarici ölkələrdə elmi mərkəzlərdə, elmi konfrans, konqres və simpoziumlarda layiqli təmsil etmişdir.

Akademik Ə.M.Quliyevin əməyi yüksək qiymətləndirilmişdir. O, iki dəfə «Qırmızı əmək bayrağı», üç dəfə «Şərəf nişanı» ordeni, beş dəfə Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı və bir neçə medallarla təltif edilmişdir. Yüksək təsirli aşqarların sintezi və onların istehsalı texnologiyasının hazırlanması işlərinə rəhbərlik etdiyinə görə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin 2 qızıl və 4 gümüş medalına layiq görülmüşdür.

Akademik Ə.M.Quliyevin xatirəsi əbədiləşdirilmiş, 1992-ci ildə 80 illik yubileyi ərəfəsində yaradıcısı olduğu Aşqarlar Kimyası İnstitutuna onun adı verilmişdir.

AMEA AKİ-nin baş direktoru
akademik Vaqif Fərzəliyev

MƏRUZƏLƏRİN TEZİSLƏRİ

I BÖLMƏ

YAĞLARA, YANACAQLARA VƏ XÜSUSİ MAYELƏRƏ AŞQARLAR, POLİMER MATERİALLARINA STABİLİZATORLAR

AZOTSAXLAYAN ÇOXFUNKSİYALI ALKİLFENOLYAT AŞQARLARI

V.M.Fərzəliyev, E.Ə.Nağıyeva, Ə.K.Kazımzadə, Ə.Ə.Qədirov, X.N.Məmmədyarova, R.Ə.Məmmədova
AMEA akad. Ə.M. Quliyev adına Aşqarlar Kimyası İnstitutu
e-mail: xedice.memmedyarova@mail.ru

Alkilfenolyat tipli aşqarların daha geniş və müvəffəqiyyətlə tətbiqi istismar müddəti uzun olan müxtəlif təyinatlı motor yağları üçün yeni və effektli alkilfenolyat aşqarı modifikasiyalarının yaradılmasına sövq edir və onlara tələbatın daha da artdığını göstərir. Bununla əlaqədar olaraq motor yağlarının əsas xassələrinə - korroziyaya, oksidləşməyə, termiki stabilliyə və yuyuculuq xassələrinə yeni tələblər qoyulur.

Müasir və perspektivli motor yağlarının tələbatlarını yeni tip keyfiyyətli çoxfunksiyalı aşqarların işlənib hazırlanması ilə təmin etmək mümkündür.

Alkilfenolyat tipli aşqarların quruluşu və istehsalının mükəmməlləşdirilməsi ilə onların çeşidlərinin yenilənməsi mövcud aktual məsələlərdəndir.

Bu amilləri nəzərə alaraq, tədqim edilən işdə dodesilfenolun formaldehid, ammonyak və 4-aminopiridinin kondensləşmə məhsulunun kalsium duzu (AKİ-76) və onun karbonatlaşmış variantı AKİ-137 aşqarı verilmişdir.

AKİ-76 aşqarın alınmasının ehtimal olunan sxemi aşağıdakı kimidir:



Alınmış aşqar özlü mayedir. Onun qələvi ədədi 90-95 mqKOH/q, külü 8.5-9.5%-dir.

Aşqarın fiziki-kimyəvi və funksional xassələri standart üsullarla tədqiq edilmişdir. Aşqarın korroziyaya və oksidləşməyə davamlığı uyğun olaraq ГОСТ 20502-75 və ГОСТ 11063-77, yuyuculuq xassələri isə ГОСТ 5726-2013 üzrə təyin edilmişdir.

Nəticələrdən aydın olmuşdur ki, AKİ-76 aşqarı antikorroziya, antioksidləşmə xassələrinə görə müqayisə üçün götürülmüş sənaye aşqarları olan ИХП-101 və ЦИАТИМ-339-dan üstündür.

Dünyada motor yağlarına yüksək qələvili alkilfenolyat aşqarları istifadə olunur. Qələvi ədədi yüksək olan aşqarlar yüksək neytrallaşma xassələrinə malik olur ki, bu zaman yağın oksidləşməsindən əmələ gələn turşuları neytrallaşdıraraq oksidləşmə və korroziyaya qarşı davamlılığı artırırlar. Yüksək qələvili alkilfenolyat aşqarlarının alınmasının ilkin mərhələsi orta qələvili aşqarların alınması ilə eynidir, lakin yalnız karbonatlaşma prosesinə görə onlardan fərqlənirlər.

AKİ-137 aşqarının sintezinin nəzərdə tutulan sxemi:



Aşqarın qələvi ədədi 130-150 mqKOH/q, sulfat külü 13.5-15.5%-dir.

AKİ-137 aşqarının fiziki-kimyəvi və funksional xassələri M-8 yağında standart metodlarla öyrənilmişdir. Tədqiqatlar göstərmişdir ki, AKİ-137 aşqarı effektli, çoxfunksiyalı aşqardır, onun funksional xassələri AKİ-76 aşqarından və korroziyaya qarşı xassələri isə analoqları olan ВНИИНП-714, MACK aşqarlarından üstündür.

Beləliklə, AKİ-137 aşqarı yüksək korroziyaya, oksidləşməyə qarşı və yuyuculuq xassələrinə malikdir və müasir motor yağlarının alınmasında istifadə etmək məqsədə uyğundur.

DİİZOPROPİLDİTİOFOSFAT TURŞULARI EFİRLƏRİNİN SİNTEZİ VƏ ONLARIN AŞQAR KİMİ TƏDQİQİ

N.N.Novotorjina, Q.A.Qəhrəmanova, T.N.Qulubəyova, M.R.Səfərova, M.Ə.Musayeva, Ş.K.Kazımzadə, Y.S.Mustafayeva

AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu

E-mail: yegane.434@mail.ru

Aşqarların təsir mexanizmi və onların quruluşu ilə funksional xassələri arasındakı qanunauyğunluğun öyrənilməsi nəticəsində yüksək təsirə malik müxtəlif təyinatlı aşqarların məqsədyönlü sintezi alimlərin uzun illərdir tədqiqat obyekti olmuşdur.

Məlumdur ki, fosfor və kükürd tərkibli maddələr həm siyrilmə, həm də yeyilmə xassələrinə malikdir [1, 2]. Buna əsaslanaraq, diizopropilditiofosfat turşusunun bir sıra efirləri sintez edilmişdir. Alınan maddələrin tərkibinə müxtəlif funksional fraqmentlər daxil edilmiş, eyni zamanda molekulunda diizopropilditiofosfat fraqmenti saxlayan bisdiizopropilditiofosfatlar da alınmışdır.

Sintez olunmuş maddələrin İQ, PMR spektrləri çəkilmiş, element analizi, xüsusi çəkiləri, şüasındırma əmsalları təyin edilmiş, sonra isə hesablanmış və təyin edilmiş MRD-ləri müqayisə etməklə, quruluşları təsdiq edilmişdir. Asetoksimetil- və asetoksietildiizopropilditiofosfatlar vakuumda qovulan maddələrdir, bisdiizopropilditiofosfatların təmizlənməsi isə maye kolonka xromatoqrafiyası ilə aparılmışdır.

Cədvəl

Sintez edilmiş maddələrin yağlayıcılıq xassələri

Birləşmələr	Birləşmənin yağda qatılığı, %	Triboloji xassələri ГОСТ 9490-75 üzrə			
		Siyrilmə indeksi, $И_з$, N	Böhran yükü, $P_к$, N	Qaynaq yükü, P_c, N	Yeyilmə izinin diametri $D_и$, mm
1	*2*	*3*	*4*	*5*	*6*
MC-20 yağı	–	333	784	1560	0,72
$CH_3C(=O)CH_2S(=S)P(OC_3H_7\text{-}i)_2$	5	588	1285	3904	0,45

1	2	3	4	5	6
$C_6H_5\underset{\underset{O}{\|}}{C}OCH_2S\underset{\underset{S}{\|}}{P}(OC_3H_7\text{-i})_2$	5	510	1235	3087	0,40
$(i\text{-}C_3H_7O)_2\underset{\underset{S}{\|}}{P}SCH_2CH_2O\underset{\underset{O}{\|}}{C}CH_3$	5	529	1235	2930	0,40
$(i\text{-}C_3H_7O)_2P(=S)S\text{—}S\overset{\overset{S}{\|}}{P}(OC_3H_7\text{-i})_2$	3	706	1568	4381	0,45
$(i\text{-}C_3H_7O)_2P(=S)S\text{—}CH_2\text{—}S\overset{\overset{S}{\|}}{P}(OC_3H_7\text{-i})_2$	5	686	1568	3920	0,51
$(i\text{-}C_3H_7O)_2P(=S)S\text{—}CH_2CH_2\text{—}S\overset{\overset{S}{\|}}{P}(OC_3H_7\text{-i})_2$	5	657	1382	3920	0,51
$(i\text{-}C_3H_7O)_2P(=S)S\text{—}CH(C_6H_5)\text{—}S\overset{\overset{S}{\|}}{P}(OC_3H_7\text{-i})_2$	5	755	1568	4381	0,45

Alınan nəticələr göstərir ki, sintez edilən bütün maddələr yüksək siyrilmə və yeyilmə xassələrinə malikdir. Tədqiqatlar nəticəsində bəzi qanunauyğunluqlar aşkar edilmişdir – radikalın uzunluğu azaldıqca və molekula elektrodonor qrupları daxil etdikcə maddələrin siyrilməyə qarşı effekti çoxalır. Molekulda α-karbon atomunun elektromənfi fenil qrupunun mövcudluğu bisdiizopropilditiofosfatların yağlayıcılıq xassələrini yaxşılaşdırır. Molekulunda iki diizopropilditiofosfat fraqmenti olan maddələrin siyrilməyə qarşı xassələri daha yüksəkdir. Metilen qrupu zəncirinin uzanması $-CH_2-CH_2-$ siyrilməyə qarşı xassələrin azalmasına gətirib çıxarır. Qeyd etmək lazımdır ki, bisdiizopropilditiofosfatın siyrilməyə qarşı xassələri 3% qatılıqlı məhlulda öyrənilsə də, metilen qrupları ilə ayrılan diizopropilditiofosfatlardan üstündür.

ƏDƏBİYYAT

1. Евстафьев В.П. и др. Новая дитиофосфатная присадка к смазочным маслам // Химия и технология топлив и масел, 2001, № 6, с. 32.
2. Кулиев А.М. Химия и технология присадок к маслам и топливам. Л.: Химия, 1985, 312 с.

OLİQOALKİLFENOLYAT TİPLİ YENİ ÇOXFUNKSİYALI AŞQARIN ALINMASI

C.Ş.Həmidova, E.U.İsakov, R.H.Nəzərov,
N.C.Hüseynova, M.A.Həsənova,R.N.Hafizova
AMEA akad. Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
E-mail: c.hamidova@mail.ru

Açar sözlər: oliqoalkilfenol, formaldehid, dietilentriamin, kondensləşmə, molibden oksidi, neytrallaşma, çoxfunksiyalı aşqar, yeyilməyə qarşı xassələr.

Kompozision tərkibli bir sistem olan sürtkü yağlarını hazırlamaq üçün neft yağlarına və ya sintetik yağlara uyğun aşqarlar paketi əlavə edilir. Bu aşqarlar paketində coxfunksiyalı

polimer aşqarlar xüsusi yer tutur – onlardan istifadə etməklə yağların həm özlülülk-temperatur, həm də digər istismar xassələrini yaxşılaşdırmaq mümkündür [1]. Belə ki, bir aşqarın sürtkü yağlarının bir sıra istismar keyfiyyətini yaxşılaşdırmasına nail olmaq daha sadə tərkibdə sürtkü kompozisiyası hazırlamağa imkan verir. Aşqarların istismar xassələrinə qoyulan tələblər günü-gündən artdığından, çoxfunksiyalı polimer aşqarların da yeni nümayəndələrinin sintezi və tədqiqi aktual olaraq qalmaqda davam edir.

Əvvəlki tədqiqatlarımızda yağlara əlavə olaraq özlülük-temperatur xassələri vermək üçün coxfunksiyalı aşqar sintezində tərkibində oliqomer radikalı olan alkilfenollardan istifadə etməyin məqsədəuyqunluğunu qeyd etmişdik və oliqoalkilfenollar əsasında coxfunksiyalı küllü və külsüz aşqarların sintezinin mümkünlüyünü göstərmişik [2-4].

Təqdim olunan məqalədə isə oliqoalkilfenol əsasında daha yeni bir çoxfunksiyalı aşqarın alınması və tədqiqindən bəhs edilir. Belə ki, bu aşqarın sintezi prosesinin neytrallaşma mərhələsində istifadə olunan reagentin tərkibindəki metalın təbiətini dəyişməklə, alınan aşqara daha bir neçə funksional xassə verilir. Bu məqsədlə oliqoalkilfenolun formaldehidlə və dietilentriaminlə kondensləşmə məhsulu molibden oksidi (VI) ilə neytrallaşdırılır. Məlum olduğu kimi tərkibində molibden saxlayan aşqarlar yeyilməyə qarşı yüksək davamlılıq xassələri daşıyır ki, bu da Mo elementinin təbiəti ilə izah olunur.

Işin mahiyyəti aşağıdakılardan ibarətdir: oliqoalkilfenol (oliqoalkilfenolu xlorid alüminium katalizatoru iştirakında heksen-1-in oliqomerləşməsini apardığımız reaksiya sisteminə fenol verməklə sintez edirik), formaldehidin 37%-li sulu məhlulu və dietilentriamin qarışığı 96-98°C-də şüasındırma əmsalı n_D^{20}= 1,5165-1,5185 olan məhsul alınana qədər qarışdırılır. Kondensləşmə məhsuluna molibden oksidi (VI) əlavə edilir və 80-85°C-də 3,5-4 saat qarışdırırlır. Sonra temperaturu 115-120°C-yə qədər qaldıraraq quruma aparırlır. Alınan son məhsul – oliqoalkilfenolun formaldehid və dietilentriaminlə kondensləşmə məhsulunun molibden duzunu – sentrifuqda qarışıqlardan ayırılır.

Alınan yeni kimyəvi birləşmənin – 2,2'-metilenbis-4,4'-oliqoalkilfenolun formaldehid və dietilentriaminlə kondensləşmə məhsulunun molibden duzunun tərkib və quruluşu fiziki-kimyəvi üsullarla təsdiq olunaraq, ümumi formulu belə fərz edilir:



R,R^1 – mol.kütləsi 800-1000 olan heksen-1 oliqomer radikalıdır

Sintez olunmuş bu birləşmə tünd qəhvəyi rəngli özlü mayedir, sürtkü yağlarında yaxşı həll olur.

Alınmış yeni birləşmənin nümunələri sürtkü yağlarında tədqiq edilmiş və onların effektiv çoxfunksiyalı təsirə malik olduqları müəyyən edilmişdir. Belə ki, onlar özlülük-temperatur, korroziyaya və oksidləşməyə qarşı davamlılıq və yuyucu-dispersləşdirici xassələr daşımaqdan savayı, yeyilməyə qarşı yüksək davamlılıq xassələrinə də malikdirlər.

Alınmış aşqarla qatılaşdırılmış yağ nümunələrinin fiziki-kimyəvi və funksional xassələri çoxfunksiyalı oliqoalkilaminofenolun kalsium duzu aşqarı [4] ilə müqayisəli şəkildə öyrənilərək, aşağıdakı cədvəldə verilir:

Cədvəl

Xassələr	Yeni aşqar	Oliqoalkilaminofenolun Ca duzu
Qələvi ədədi, mqKOH/q	75,9 – 81,6	76,0 – 81,5
Kinematik özlülük,100°C-də, mm^2/s	65,0 – 75,0	60,0 – 65,0
Kalsiumun miqdarı, %	–	2,0 – 2,2
Molibdenin miqdarı, %	2,4 – 2,6	–
Azotun miqdarı, %	0,66 – 0,73	0,65 – 0,71
Sulfat külü, %	6,95 – 7,42	6,91 – 7,23
M-8 yağı 5% aşqarla		
Korroziyalılıq, q/m^2	yoxdur	yoxdur
Oksidləşmə, çöküntünün miqdarı, %	0,05 – 0,1	0,05 – 0,1
PZV usulu ilə yuyuculuq xassələri yağı, ball	0,5	0,5*
Özlülük indeksi	95 – 98	94 – 97
Yeyilmə izinin diametri d, mm	0,38 – 0,40	–
Kritik (böhran) yükləmə P_k, N	850 – 880	–
Qaynaq yükləmə P_q, N	2200 – 2400	–

Cədvəldən göründüyü kimi, korroziyaya və oksidləşməyə qarşı davamlılıq, yuyucu-dispersləşdirici, özlülük-temperatur xassələrinə görə yeni aşqar oliqoalkilaminofenolun Ca duzu səviyyəsindədir, lakin əlavə olaraq yeyilməyə qarşı yüksək davamlılıq xassələrinə malikdir.

Beləliklə, aparılan tədqiqatların nəticələri göstərdi ki, prosesin gedişində kondensləşmə məhsulunu neytrallaşdırmaq üçün istifadə olunan reagentin tərkibindəki metalın təbiətinin dəyişməsi yeni, daha effektli çoxfunksiyalı polimer aşqarın alınmasına imkan verir, digər tərəfdən isə çoxfunksiyalı polimer aşqarların çeşidi genişlənmiş olur.

Ədəbiyyat

1. А.И.Ахмедов, В.М.Фарзалиев, Р.М.Алигулиев. Полимерные присадки и масла. Баку, 2000, с.57.
2. Ə.İ.Əhmədov, R.H.Nəzərov, C.Ş.Həmidova, E.U.İsakov. Oliqoalkilfenolun sintezi və aminometilləşdirilməsi // Azərbaycan Neft Təsərrüfatı jurnalı, № 4, 2011, səh. 39-42.
3. Azərb. Patenti İ 2015 0053.
4. Azərb. Patenti İ 2015 0074

МНОГОФУНКЦИОНАЛЬНАЯ МОЮЩЕ-ДИСПЕРГИРУЮЩАЯ ПРИСАДКА К СМАЗОЧНЫМ МАСЛАМ

П.Ш.Мамедова, С.М.Велиева, И.Д.Кулалиев, К.А.Салманова, И.А.Садирзаде
Институт химии присадок им.акад.А.М.Кулиева НАН Азербайджана
salmanovakama@mail.ru

В качестве моюще-диспергирующих присадок к моторным маслам широко применяют высокощелочные сульфонаты, вырабатываемые из нефтяных масел и синтетических алкилароматических углеводородов. Однако технология производства нефтяных сульфонатов является сложной и многостадийной, сопровождается образованием значительного количества трудноутилизируемого отхода – кислого гудрона (до 30%). При производстве синтетических сульфонатов конечный высоковязкий продукт разбавляется маслом, что приводит к снижению содержания активного вещества. Кроме того, производимые сульфонаты многофункциональны, улучшают лишь моюще-диспергирующие свойства масел.

Учитывая актуальность проблемы, нами разработан процесс получения сульфонатных присадок с многофункциональными свойствами на базе смешанного сырья – нефтяного масла, облагороженного синтетическим алкилароматическим компонентом. В качестве нефтяного сырья использовано масло М-10 из смеси Бакинских нефтей, содержащее 18% легких и средних алкилароматических углеводородов. Синтетическим и алкилароматическим компонентом служил технический додецилфенол, вырабатываемый на основе тетрамеров пропилена.

При сульфировании смешанного сырья триоксидом серы выход сульфокислот составляет 94-96%, трудноутилизируемого отхода – кислого гудрона на 35-40% ниже, чем при сульфировании нефтяного масла. Изучено влияние количества алкилфенола, добавляемого к маслу, на показатели качества нейтрального сульфоната и установлено, что оптимальным является соотношение масло:алкилфенол, равное 1,5 : 1.

Карбонатацией нейтрального сульфоната диоксидом углерода в присутствии промотора–метанола, растворителя бензина БР – 1 синтезирована среднещелочная присадка типа С-150. На основе полученных экспериментальных результатов проведена оптимизация процесса с применением методов математического анализа. Для решения задачи оптимизации была применена программа Матлаб – 6. Результаты расчета по этой модели хорошо согласуются с экспериментальными данными.

Полученные присадки представляют собой вязкие жидкости темно-коричневого цвета. Результаты лабораторных испытаний показали, что нейтральный полусинтетический сульфонат по показателям качества превосходит соответствующий нефтяной сульфонат (содержание активного вещества 49 и 40%, выход 92 и 68% соответственно). Разработанный среднещелочной сульфонат на базе смешанного сырья проявляет многофункциональные свойства, улучшая наряду с моюще-диспергирующими, противокоррозионные свойства и стабильность против окисления масел, а также характеризуется повышенной стойкостью коллоидной дисперсии к действию воды.

Полусинтетические сульфонаты с различной щелочностью по показателям качества превосходят зарубежный аналог - среднещелочную присадку Хайтек 6060М (диспергирующая способность при 250 ^{0}С 75 и 60%, коррозия на свинце 34 и 85 г/м^2 соответственно).

С использованием среднещелочного полусинтетического сульфоната разработано моторное масло М-10Г$_2$ для автотракторных дизелей. Результаты лабораторных испытаний показали, что применение разработанной присадки в количестве 3%

обеспечивает получение опытного масла с высокими физико-химическими и функциональными свойствами.

C_8- KARBON TURŞUSUNUN ALLİL EFİRİNİN BUTİLMETAKRİLATLA İKİLİ BİRGƏ POLİMERİNİN SİNTEZİ VƏ TƏDQİQİ

L.K.Kazımzadə, C.Ş.Həmidova, E.İ.Həsənova, E.U.İsakov, R.M.İsmayılova, M.Ə.Musayeva

AMEA akademik Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutu

E-mail: lkazimzade@mail.ru

Özlülük aşqarları almaq üçün istifadə edilən monomerlərin xammal ehtiyatlarını genişləndirmək məqsədilə mürəkkəb allil efirlərinin sintezi və onları vinil monomerləri ilə birgə polimerləşdirərək özlülük aşqarları alınması istiqamətində tədqiqatlar aparmışıq.

Məlumdur ki, allil monomerləri praktiki olaraq ayrılıqda polimer əmələ gətirmir, lakin digər monomerlə birgə polimerləşə bilirlər. Bu xüsusiyyətlərini və sintez edilən özlülük aşqarlarının yüksək termiki stabilliyinə irəli sürülən tələbatı nəzərə alaraq, C_6, C_7, C_8- karbon turşularının allil efirlərinin bəzi vinii monomerləri ilə (stirol, butilmetakrilat və s.) birgə polimerləşməsi istiqamətində tədqiqatları davam etdirərək C_8-karbon turşusunun allil efirinin (allilkaprinat) butilmetakrilatla (BM) birgə polimerinin sintezi reaksiyasını aparmışıq. Birgə polimerləşmə radikal mexanizm üzrə aparılmış və alınan polimerlər özlülük aşqarı kimi tədqiq edilmişdir.

Allilkaprinat (AK) məlum efirləşmə reaksiyası ilə kapron turşusuna (n-oktan turşusu) allil spirti ilə təsir etməklə alınır. Alınmış allilkaprinat aşağıdakı fiziki-kimyəvi göstəricilərə malikdir: Mr =212, n_D^{20}=1,4315, d_4^{20}=928 kq/m^3.

Sintez edilmiş allil efiri – allilkaprinat butilmetakrilatla birgə polimerləşmə reaksiyası inisiator (benzoil peroksid) iştirakında 70-80°C temperatur intervalında 5-6 saat müddətində aparılır. Prosesə monomerlər nisbətinin, temperaturun və inisiatorun miqdarının təsiri öyrənilmiş, yüksək çıxım və molekul kütləsinin qiymətini təmin edən reaksiya şəraiti: monomerlər nisbəti AK**:**BM 90:10–80:20% (kütlə), temperatur 70-80°C, inisiator sərfi 1-1,5% (reaksiya qarışığına nəzərən), davametmə müddəti 5-6 saat müəyyən edilmişdir. Reaksiyanın aşağıdakı cxem üzrə getdiyi fərz edilir:



Allilkaprinatın butilmetakrilatla radikal mexanizmi üzrə birgə polimerləşməsi nəticəsində əmələ gələn birgə polimerin quruluşu İQ-spektroskopiya üsulu ilə tədqiq edilmişdir. Spektrdə müşahidə edilən 1770 sm^{-1} udulma zolağı mürəkkəb efir qrupuna, 1387 sm^{-1} udulma zolağı isə metakrilat zəncir həlqəsinin **-**CH_3 qrupuna uyğundur. 750-850 sm^{-1} intervalında müşahidə edilən udulma zolaqları **-(**$CH_2)_n$ (n>4 olduqda) qruplarının olmasını təsdiq edir.

Sintez edilmiş birgə polimer mineral və sintetik yağlarda asan həll olan (monomer tərkibindən asılı olaraq), açıq sarı rəngli özlü maddədir. Bu işdə birgə polimer neft yağlarında özlülük aşqarı kimi tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, molekul kütləsi təxminən 10000 olan birgə polimerdən neft yağlarına 1-1,5% əlavə etdikdə yağların 100°C-də kinematik özlülüyü 1 mm^2·s^{-1}, özlülük indeksinin qiyməti isə baza yağının təbiətindən asılı olaraq 15-18 vahid artır. Bu göstəricilərə görə sintez edilmiş birgə polimer allilkapronatın butilmetakrilatla birgə polimeri kimi, məlum özlülük aşqarları (poliizobutilen,

polialkilmetakrilatlar və s.) ilə bir səviyyədə olub, termiki və mexaniki təsirlərə qarşı davamlılıqlarına görə onlardan üstündür.

QLİOKSAL TURŞUSUNUN TİOSEMİKARBAZONU VƏ ONUN ƏSASINDA SİNTEZ OLUNMUŞ KOMPLEKS BİRLƏŞMƏLƏRİNİN KARBOHİDROGENLƏRİN OKSİDLƏŞMƏSİNİN QARŞISINI ALAN AŞQAR KİMİ TƏDQİQİ

M.T. Hüseynova, L.N.Əliyeva, Ə.R.Sucayev, İ.Ə.Rzayeva
AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
E-mail:huseynovamansura@gmail.com

Elm və texnikanin sürətlə bir-birinə inteqrasiyası nəticəsində yeni müasir avadanlıqların ixtirası ilə əlaqəli olaraq sürtkü yağlarının, yanacaqların keyfiyyətinin artırılması, onların oksidləşməyə qarşı davamlılığının yüksəldilməsi indiki dövrdə ən aktual məsələlərdən biri olmuşdur. Bu səbəbdən də son illərdə alimlərin marağına səbəb olan ən çox araşdırılan mövzulardan, qarşıya qoyulan məsələlərdən biri də sürtkü yağlarının, yanacaqların tərkibindəki karbohidrogenlərin oksidləşməsinin qarşısını alan müxtəlif birləşmələrin işlənib hazırlanması olmuşdur. Mexanizmlərin işləməsi zamanı yaranan neqativ halların başlıca səbəbi müxtəlif təbiətli oksidləşmə məhsullarının və sərbəst radikalların əmələ gəlməsi olmuşdur [1 s. 153−157, 2 s. 110−112]. Nəzərdə tutulmuş antioksidant aşqarlar yağların, yanacaqların oksidləşdirici müqavimətini yüksəltməklə istismar müddətini artırır. Eyni zamanda bu məhsulların yuxarı temperaturlarda işləmə qabiliyyətini də yüksəldir. Yağ karbohidrogenlərinin oksidləşmə reaksiyası sərbəst radikalların zəncirvari şaxələnməsi istiqamətində baş verdiyindən, ilk növbədə bu prosesin qarşısını almaq üçün elə oksidləşmə inhibitoru seçilməlidir ki, bu aşqarlar yaranan radikallarla reaksiyaya daxil olub hidroperoksidləri parçalasın. Aşqarların antioksidant xassələri onların tərkibində olan funksional qruplardan asılı olduğundan müxtəlif növ funksional qrupları olan antioksidantların sintezi və onların təsir mexanizminin öyrənilməsi həm nəzəri, həm də praktiki cəhətdən əsas istiqamətlərdən biridir.

Ədəbiyyatda olan mühüm məlumatları nəzərə alaraq tərkibində kükürd, azot olan polifunksional aşqarların sintezini, onların təsir mexanizmini, antioksidant effektliliyinin öyrənilməsi bu istiqamətdə öz tədqiqini tapmışdır. Xüsusilə, kükürdlü metal komplekslərinin aşqar kimi seçilməsi məhz bir molekulda iki növ antioksidantın: peroksid radikalları ilə reaksiyaya girməsi və oksidləşmə zəncirini qırması, yaranan hidroperoksidi hissələrə parçalaması cəhətdən üstünlük təşkil edir.

Tərəfimizdən sintez olunmuş kükürd və azot fraqmentinə malik qlioksal turşusunun tiosemikarbazonun keçid sırası metal komplekslərinin bu istiqamətdə tədqiqi aparılmışdır. Bu birləşmələrin antioksidləşdirici yəni oksidləşmə inhibitoru kimi təsiri kinetik üsulla öyrənilmişdir. Üsulun əsas mahiyyəti yuxarıda da qeyd olunduğu kimi peroksid radikalları ilə reaksiyaya girərək oksidləşmə zəncirinin qırılmasını və hidroperoksidlərin parçalanmasını təmin etməkdir.

Qeyd etmək lazımdır ki, tərəfimizdən sintez olunan H_2GAT, $Ni(HGAT)_2{\cdot}2H_2O$, $[Zn(HGAT){\cdot}H_2O]_n$, birləşmələrin antioksidant təsirini kumolun oksidləşmə reaksiyaları − kumolun avtooksidləşməsi və kumilperoksidlə reaksiyası vasitəsilə tədqiq edilmişdir [2 s. 111]. H_2GAT, $[Zn(HGAT){\cdot}H_2O]_n$, $Ni(HGAT)_2{\cdot}2H_2O$ birləşmələrin iştirakı nəticəsində oksidləşmənin qarşısını alan inhibitor və ya antioksidant kimi təsir mexanizmininin müəyyən olunması kumolun avtooksidləşməsinin araşdırılması ilə öyrənilmişdir.

Araşdırılmaların nəticələrindən məlum olmuşdur ki, tədqiq olunmuş H_2GAT, $[Zn(HGAT){\cdot}H_2O]_n$, $Ni(HGAT)_2{\cdot}2H_2O$ birləşmələri kifayət qədər yüksək antioksidant aktivliyinə malikdirlər. İnhibitor kimi tədqiq olunan birləşmələr kumilperoksid radikalları ilə reaksiyaya girərək oksidləşmənin qarşısını alırlar. Tədqiq olunan H_2GAT, $[Zn(HGAT){\cdot}H_2O]_n$,

$Ni(HGAT)_2 \cdot 2H_2O$ inhibitorların iştirakı zamanı kumolun tərəfimizdən sintez olunmuş antioksidant fəallığı daha yüksəkdir. Bu proses onu göstərir ki, hətta induksiya dövründən sonra da bu birləşmələr oksidləşməni əngəlləyir.

Sintez olunmuş birləşmələrin iştirakı ilə kumolun avtooksidləşməsinin induksiya dövrünün göstəriciləri və birləşmələrin kumilperoksid radikalları ilə reaksiyasının kinetik parametrləri cədvəl 1-də verilmişdir:

Cədvəl

H_2GAT, $[Zn(HGAT)\cdot H_2O]_n$, $Ni(HGAT)_2\cdot 2H_2O$ birləşmələrinin iştirakı ilə kumolun avtooksidləşməsinin induksiya dövrünün qiymətləri və kumilperoksid radikalları ilə reaksiyasının kinetik parametrləri

Birləşmələr və formulları	T = 60˚ C		T = 110˚ C
	f	$K_7 = 10^{-4} l^{-1} \cdot mol^{-1} \cdot san^{-1}$	τ, *dəq.*
H_2GAT 	2.064	2.05	120
$[Zn(HGAT)\cdot H_2O]_n$ 	3.36	2.9	200
$Ni(HGAT)_2$ 	3.96	4.59	220
İonol (etalon antioksidant) 	2.00	2.10	150

Cədvəldən göründüyü kimi, kumolun avtooksidləşməsinin qarşısını almaq və kumilperoksid radikallarını dəf etmək xassələrinə görə H_2GAT, $[Zn(HGAT)\cdot H_2O]_n$, $Ni(HGAT)_2\cdot 2H_2O$ inhibitorlarının göstəriciləri etalon antioksidantın ionolun göstəricilərindən kifayət qədər yüksəkdir. Müqayisə nəticəsində aşkar olunmuşdur ki, liqandın antioksidant aktivliyi Zn(II) və Ni(II) komplekslərinə nisbətən zəifdir və bu birləşmələr sırasında ən yüksək nəticəni $Ni(HGAT)_2\cdot 2H_2O$ kompleksi göstərmişdir τ_{ind}= 220dəq. Beləliklə, tərəfimizdən sintez olunmuş $[Zn(HGAT)\cdot H_2O]_n$, $Ni(HGAT)_2\cdot 2H_2O$ komplekslərinin antioksidant aktivliyinin nəticələrinə əsasən karbohidrogenlərin oksidləşməsinin qarşısını alan antioksidant aşqar kimi yüksək təsirə malik olduqları aşkar edilmişdir.

ƏDƏBİYYAT

1. Фарзалиев В.М. и др. 3-замешенных тиетаны и эффективные ингибиторы окисление кумола // Журнал прик. хим., −2001, т. 74, № 1, −ст. 110−112.

2. Фарзалиев В.М. и др. Антиоксилительные свойства 2-пропилфенола и их аминометильных производных // ЖПХ, − 2008, (81), № 1, − ст. 78−81.

BOR-AZOT SAXLAYAN ALKİLFENOLYAT AŞQARLARININ SİNTEZİ VƏ MOTOR YAĞLARININ XASSƏLƏRİNƏ TƏSİRİ

A.X.Məmmədova, V.M.Fərzəliyev, Ə.K.Kazımzadə, R.Q.Heydərova
AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
E-mail: aki05@mail.ru

Bor atomu yağlarda həll olan üzvi birləşmələrdən metal səthinə adsorbsiya edərək onun səthini passivləşdirir, onu oksidləşmə katalizatoru olmaqdan uzaqlaşdırır. Bununla da, oksidləşmə və korroziyaya qarşı xassələrin yüksəlməsinə səbəb olur. Bor atomunun alkilfenol birləşmələri tərkibində öyrənilməsi hazırkı dövrə qədər ədəbiyyatdan çox az məlumdur ki, bu maddələrin yeni modifikasiyalarının alınması, tədqiqi daha sərt şəraitlərdə işləyə bilən motor yağlarının yaradılmasına aid olub, xüsusi maraq doğurur [1-3].

Qeyd edilənlərə əsaslanaraq tərəfimizdən dodesilfenoldan alınan dıfialkildihidroksibenzilamin törəməsi əsasında bor saxlayan orta qələvili AKİ-233B və yüksək qələvili AKİ-234B aşqarları sintez edilmişdir.

Aşqarların sintezi aşağıdakı mərhələlər üzrə yerinə yetirilmişdir:

– didodesildihidroksidibenzilaminin alınması üçün dodesilfenolun formaldehid və ammonyakla kondensləşməsi aparılmış;

– alınan məhsul ikinci mərhələdə yenidən formaldehid və dietanolaminlə kondensləşdirilmiş;

– sonra kondensləşmə məhsulu ardıcıl olaraq borat turşusu ilə işlənmişdir.

Yalnız azot saxlayan və bor-azot saxlayan kondensləşmə məhsullarından 20% kalsium hidroksidlə neytrallaşdırmaqla orta qələvili duzlar – AKİ-233 və AKİ-233B aşqarları (qəl. əd 115-120 mqKOH/q), bor saxlayan variantı 48% kalsium hidroksidlə neytrallaşdırmaqla, həm də karbon qazı ilə karbonatlaşmadan yüksək qələvili AKİ-234B aşqarı sintez edilmişdir. AKİ-234B aşqarı 155-160 mqKOH/q qələviliyə malikdir. AKİ-233 aşqarı isə müqayisə məqsədi ilə alınmışdır. Bor saxlayan aşqarlar bundan əvvəl uyğun olaraq kükürdləşmiş alkilfenoldan da alınmışdır. Analoji kükürd saxlayan analoqlarından yalnız yeyilməyə qarşı xassələrə görə (eyni qatılıqda 0,31-0,33 mm-ə qarşı 0,42-0,45 mm olmaqla) bir qədər geri qalır.

Bor saxlayan AKİ-233B və AKİ-234B aşqarlarının formullarını aşağıdakı kimi göstərmək olar.



;

R=$C_{12}H_{25}$ R=$C_{12}H_{25}$

Aşqarların İQ-spektrlə qurluş və tərkibləri, individual halda fiziki-kimyəvi və funksional xassələri öyrənilmiş, onların effektli korroziya, oksidlşmə, yeyilməyə qarşı və yuyuculuq xassələrinin olması həm öz aralarında, həm də sənaye analoqları ilə müqayisəli olaraq

müəyyən edilmişdir. AKİ-233B-nin azot saxlayan analoqlarından korroziyada və oksidləşmədə 3-5 dəfə, sənaye analoqu ASK-dan isə korroziyalıqda 43, oksidləşmədə 11 dəfə üstün, AKİ-234B-nin isə sənaye analoqu ОЛОА-218А-dan korroziyada 10 dəfə, oksidləşmədə 4.5 dəfə üstün olmaqla fərqlənməsi müşahidə olunur. AKİ-234B aşqarı yuyucu-neytrallaşdırıcı xassələri ilə də müqayisə edilən bütün analoqlarından fərqlənir. AKİ-233B aşqarının tətbiqi ilə M-8B, AKİ-234B aşqarının istifadəsi ilə M-10Г$_2$ kimi müasir tələblərə cavab verən nəqliyyat və sənaye texnikası üçün motor yağları hazırlanaraq müvəffəqiyyətlə sınaqdan keçirilmişdir.

ƏDƏBİYYAT

1. Groziak Michael P., Robinson Paul D. (SRI International, 333) Ravens-wood Ave Menlo Park. Структурная основа для устойчивости к гидролизу 2,4-динитрофенилгидразонов эфиров (2-формилфенил) бороновой кислоты. CA (94025-3493 USA) Collect Czechosl. Chem. Commun, 2002, 67, №7, с. 1084-1094. РЖ 2004; 04.24-19Ж 342.
2. Заявка 1310549. ЕПВ. 2003 (14.05.03) Составы борсодержащего смазочного масла с низким содержанием серы и фосфора / Robson Robert et al. Infineum International Ltd. РЖХ 2003. 03.23. 19П 214П.
3. Shuai-Liang Yang, Li-Chao Huang, Qing-Qing Luo, Chen-Xi Zhang et. al. Новые гетероциклические стабильные азотсодержащие бораты в качестве присадок к смазочным маслам // Нефтехимия, 2017, т. 57, №4, с. 461-467.

АЗОТСОДЕРЖАЩИЕ АЛКИЛФЕНОЛЯТНЫЕ ПРИСАДКИ

Э.А.Нагиева, А.К.Кязим-заде, В.М.Фарзалиев, А.А.Джавадова

Институт химии присадок им. акад. А.М.Кулиева НАН Азербайджана

E-mail: aki05@mail.ru

Одним из направлений в поиске новых присадок, обеспечивающих высокие эксплуатационные характеристики моторных масел в условиях повышенных температур и нагрузок, является разработка многофункциональных алкилфенолятных присадок.

Интерес химиков к этому классу органических соединений обусловлен прежде всего высокой реакционной способностью алкилфенолов, доступностью исходного сырья, а также широким применением этих присадок в общем объеме товарных присадок.

Повышенный спрос на алкилфенольные присадки не только не ослабевает, но даже растет из года в год.

Поэтому синтез новых более эффективных присадок к моторным маслам и увеличение ассортимента алкилфенолятных присадок является актуальной проблемой.

В связи с этим синтезированы и исследованы кальциевые соли продуктов конденсации алкилфенолов с формальдегидом и аммиаком или различными аминами (моноэтаноламином, бензиламином и аллиламином) по схеме реакции:



Где R–C_8–C_{12}; C_9

R_1–H, –CH_2–CH_2–OH, $C_6H_5CH_2$–, CH_2=CH–CH_2–

Полученные присадки вязкие жидкости.

Были изучены физико-химические и функциональные свойства синтезированных продуктов стандартными методами. В качестве сравнения исследовались товарные присадки ИХП-101, ИХП-109 и ВНИИНП-370 (соответствующие бариевая и кальциевая соли алкилфенолформальдегидной конденсации).

Исследования показали, что кальциевые соли аминометильных производных алкилфенолов по функциональным свойствам превосходят свои аналоги.

Среди синтезированных присадок наибольшей антиокислительной эффективностью обладают присадки, содержащие вторичный атом азота (кальциевая соль диалкилдиоксибензиламина) и бензильный радикал при атоме азота (кальциевая соль N–бензилдиалкилдиоксибензиламина).

ALLİL VƏ VİNİL MONOMERLƏRİ ƏSASINDA BİRGƏ POLİMERLƏRİN SİNTEZİ VƏ TƏDQİQİ

E.İ.Həsənova, L.K.Kazımzadə, R.M.İsmayılova
AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
amea.elnara@mail.ru

Sürtkü yağları kompozisiyalı tərkibə malik olub, müxtəlif təyinatlı aşqarlardan ibarətdir. Bu aşqarlar içərisində özlülük aşqarları xüsüusi yer tutur. Özlülük aşqarları yağların özlülük-temperatur xassələrinin yaxşılaşdırılmasına xidmət edir, yəni yağların özlülüyünü və özlülük indeksini artırır.

Özlülük aşqarları kimi vinil monomerlərinin bir çox yağda həll olan, polimer və birgə polimerlərindən istifadə edilmlir. Ancaq sürtkü yağlarının istismar şəraiti yeni növ texnikanın yaradılması ilə sərtləşir və onların tərkibində istifadə edilən özlülük aşqarları göstərilən şəraitdə öz stabilliyini itirərək destruksiyaya uğrayırlar və nəticədə yağların özlülüyü qəbul edilmiş normadan aşağı düşür ki, bu da öz növbəsində maşın və mexanizmlərin vaxtından tez sıradan çıxmasına səbəb olur. Ona görə də destruksiyaya qarşı davamlı özlülük aşqarlarının sintezi və tədqiqi istiqamətində aparılan elmi işlər neft kimyasının aktual problemlərindən biri olaraq qalır.

Polialkilmetakrilat tipli aşqarların sintezi və tədqiqi istiqamətində aparılan elmi işlərin təhlili göstərir ki, mürəkkəb efir tipli polimerlərin alınması karbohidrogen tipli polimerlərə nisbətən perspektivdir – həm sadə, zərərsiz texnologiya üzrə alınır, həm də yağların özlülük-temperatur xassələrini daha effektiv yaxşılaşdırır. Bu nöqteyi-nəzərdən, özlülük aşqarları almaq üçün istifadə edilən monomerlərin xammal ehtiyatını genişləndirmək məqsədilə C_6,

C_8, C_{10} karbon turşularının allil efirlərinin sintezi və onların alkililmetakrilatlarla (C_4, C_{10}) birgə polimerlərinin alınması və sintetik və neft yağlarına özlülük aşqarı kimi tədqiqatı istiqamətində işlər aparılmışdır.

Aparılan birgə polimerləşmə prosesinə ilkin monomerlər qarışığında alkilmetakrilatların miqdarının, inisiatorun sərfinin, reaksiyanın davametmə müddətinin və reaksiya temperaturunun təsiri öyrənilmiş, yüksək çıxım və molekul kütləsinin alınmasını təmin edən reaksiya şəraiti tapılmışdır.

Sintez edilmiş birgə polimerlər aşağı özlülüyə malik neft yağlarının tərkibində özlülük aşqarı kimi tədqiq edilmişdir. Birgə polimerin öyrənilən xassələrinin sənaye aşqarı olan polialkilmetakrilat B-2 nişanlı polimerlə müqayisəli təhlili aparılmış və müəyyən edilmişdir ki, bu xassələrə görə tədqiq olunan birləşmələr eyni səviyyədədir.

KARBON TURŞULARININ MÜRƏKKƏB ALLİL EFİRLƏRİNİN BUTİLMETAKRİLATLA BİRGƏ POLİMERLƏRİNİN TERMİKİ XASSƏLƏRİ

L.K.Kazımzadə, C.Ş.Həmidova, N.C.Hüseynova, R.M.İsmayılova
AMEA akademik Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
E-mail: lkazimzade@mail.ru

Özlülük aşqarları kimi tətbiq tapan polimer birləşmələrin mühüm istismar göstəriciləri onların termiki təsirlərə qarşı davamlılığı hesab edilir. Əgər özlülük aşqarları yüksək termiki stabilliyə malik olmasalar, onlardan istifadə edilərək qatılaşdırılmış yağların özlülüyü istismar zamanı destruksiya nəticəsində normadan aşağı düşə bilər ki, bu da yolverilməzdir, belə ki, bu zaman mühərrik detallarının kəskin yeyilməsi baş verir və maşın tez sıradan çıxar.

Özlülük aşqarlarının yağların tərkibində termiki təsirlərə qarşı davamlılığının artırılmasının ən sadə yolu ilkin monomerin stabilləşdirici vinilaromatik birləşmələrlə (məs.,, stirol, butilmetakrilat) birgə polimerləşməsidir.

Apardığımız tədqiqiatların müsbət nəticələri ali karbon (C_6, C_8, C_{10} və s.) turşularının mürəkkəb allil efirlərinin (KTAE) butilmetakrilatla (BM) birgə polimerlərinin alınması və sürtkü yağlarına özlülük aşqarı kimi tədqiqi maraqlı, perspektivli, həm elmi, həm də praktiki əhəmiyyəti olan tədqiqat işi olduğunu deməyə əsas verir.

Təqdim olunan iş də yuxarıda adları çəkilən birgə polimerlərin termiki xassələrinin öyrənilməsinə həsr olunur.

Polimerlərin termiki destruksiyasını qiymətləndirməyin müxtəlif üsulları var. Bunlardan biri xüsusi metodika üzrə işlənib hazırlanmışdır: mahiyyəti isə ondan ibarətdir ki, özlülük aşqarlarının, xüsusi seçilmiş yağda – turbin «L» yağında 5%-li məhlulları 12 saat müddətində 200°C temperaturda qızdırılır. Müəyyən zaman fasilələrindən sonra nümunələr götürülərək, onların 100°C-də kinematik özlülükləri təyin edilir və ilkin özlülüklə müqayisə edilərək, özlülüyün azalması (ÖA) müəyyən edilir və polimer birləşmənin termiki stabilliyi haqqında fikir yürüdülür.

Hesablamalar aşağıdakı formul üzrə aparılır:

$$ÖA = \frac{\nu_b - \nu_s}{\nu_b} \bullet 100\%$$

burada ν_b - yağın 100^{0}C-də başlanğıc özlülüyü, mm^2/s, ν_s - sınaqdan sonrakı özlülük, mm^2/s

Molekul kutləsi 10000 birgə polimerlərin turbin «L» yağında termiki destruksiyasının nəticələri həmin molekul kütləyə malik sənaye istehsalı olan polialkilmetakrilat “B-2” özlülük aşqarı ilə müqayisəli şəkildə aşağıdakı cədvəldə verilir.

Cədvəl

Birgə polimerlərinin turbin «L» yağında termiki destruksiyası

Birgə polimer	Yağın başlanğıc özlülüyü, mm^2/s	Termiki təsirdən qatılaşdırılmış yağın zamandan (saat) asılı olaraq, özlülüyün azalması, %			
		1	4	8	12
C_6 –KTAE-BM	15,57	3,1	3,3	4,1	4,7
C_8 –KTAE-BM	15,69	3,3	3,6	4,3	4,8
C_{10} –KTAE-BM	15,77	3,5	3,7	4,4	4,9
Polialkilmetakrilat “B-2”	15,52	-	-	-	9,1

Cədvəldən göründüyü kimi, birgə polimerlərin polialkilmetakrilat qarşısında, termiki təsirlərə qarşı daha yüksək stabilliyə malik olması birmənalı şəkildə təsdiq edilmiş olur. Deməli, birgə polimerləşmə kimyəvi modifikasiya üsulu olub, birgə polimerləşməyə daxil olacaq monomer cütünü düzgün seçməklə lazımi istismar xassələrinə malik özlülük aşqarları sintez etmək mümükündür.

BİTSİKLO[2.2.1]-HEPT-5-EN-2-KARBON TURŞUSU VƏ TRİETİLENTETRAAMİN ƏSASLI AMİDİN HEKSİLBROMİD KOMPLEKSİNİN YAĞLAYICI-SOYUDUCU MAYELƏRDƏ AŞQAR KİMİ FUNQİSİD XASSƏLƏRİNİN TƏDQİQİ

E.H.Məmmədbəyli[1], V.H.Babayeva[1], K.R.Qəhrəmanova[2], X.A.Abbasova[1]

[1]AMEA akad. Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu,
[2]AMEA akademik Ə. Quliyev adına Aşqarlar Kimyası İnstitutu
e-mail: nuraybabayeva2008@gmail.com

Yağlayıcı-soyuducu maye, yəni *YSM* dedikdə - metalların kəsmə və ya təzyiqlə emalı zamanı istifadə edilən müxtəlif maye tərkiblər başa düşülür. Ən çox yayılmış YSM neft yağlarıdır (adətən, yeyilməyə və siyrilməyə qarşı aşqarlarla birlikdə) və onların 3-10%-li su emulsiyalarıdır. YSM-lərin əsas funksiyaları soyutma və yağlamadır[1]. YSM-dən istifadə texnoloji proseslərin intensivliyini və avadanlığın məhsuldarlığını artırmağa kömək edir. Müasir dövrdə yağlayıcı-soyuducu mayelərə edilən əlavələrə, yəni aşqarlara daha çox tələbat var. Emal prosesində istifadə edilən avadanlıq və alətləri zədələnmədən qorumaq üçün ən effektli yol kimyəvi üsuldur ki, bu zaman yağlayıcı-soyuducu mayelərə biosid və funqisid aşqarlar daxil edilir. Təqdim olunan iş yeni yüksək keyfiyyətli norbornen tərkibli aşqar kompleksin sintezinə həsr olunmuşdur. Bunun üçün bitsiklo[2.2.1]-hept-5-en-2-karbon turşusu və trietilentetramin əsasında amid alınmışdır[2]. Alınmış amidin heksilbromidlə qarşılıqlı təsir reaksiyasından kompleksi alınmış, bəzi fiziki-kimyəvi xassələri təyin edilmiş və cədvəl 1.-də göstərilmişdir:

Cədvəl 1

Kompleksin fiziki-kimyəvi xassələri

Kompleksin izopropil spirtində məhlulu	Rəngi	Aqreqat halı	Sıxlığı, ρ, d_4^{20}, q/sm³	Şüasındır -ma əmsalı, n_D^{20}
bitsiklo[2.2.1]-hept-5-en-2-karbon turşusunun trietilentetramin amidinin $C_6H_{13}Br$ kompleksinin İPS-də məhlulu	Tünd qəhvəyi	Maye	1.4332	1.4200

Daha sonra kopleksin iki qatılıqda (0.25 və 0.5) olmaqla 3-4 sutka ərzində 29 ± 2°C temperaturda yağlayıcı-soyuducu mayelərdə göbələklərə qarşı aşqar kimi funqisid xassəsi sınaqdan keçirilmişdir[3-5]. Sınaq zamanı kompleksin *Aspergillus niger, Cladosporium resiane, Penicillium chrysogenum, Trichoderma viride* göbələk növlərinə təsiri öyrənilmişdir. Müqayisə üçün mikroba qarşı etalon kimi yağlayıcı-soyuducu maye götürülmüşdür. Tədqiq olunan birləşmənin antimikrob keyfiyyətləri ГОСТ 9.052-88 əsasında, zonal diffuziya üsulu ilə təyin olunmuşdur. Tədqiq olunan nümunənin yağlayıcı-soyuducu mayelərdə mikroorqanizmlərə qarşı aşqar kimi effektliliyi onların mikroorqanizmlərin məhvolma (aşqarlı, aşqarsız) zonasının diametrinin böyüklüyünə görə (sm)-lə müəyyən edilir: məhvolma zonasının diametri nə qədər böyük olarsa, sınaqdan keçirilən aşqarın antimikrob xassəsi bir o qədər yüksək hesab olunur. Müəyyən edilmişdir ki, yağlayıcı-soyuducu mayelərdə sınaqdan keçirilmiş üzvi birləşmə funqisid xassə göstərir. Kompleksin YSM-ə antimikrob aşqar kimi təsirinin nəticəsi cədvəl 2.-də göstərilmişdir:

Cədvəl 2

Kompleksin YSM-də antimikrob xassələrinin təyini

№	Birləşmənin formulu	Biosidin qatılığı, %	Mikroorqanizmlərin məhvolma zonası (sm) Göbələk (*Aspergillus niger, Cladosporium resiane, Penicillium chrysogenum, Trichoderma viride*)
1	Bitsiklo[2.2.1]-hept-5-en-2-karbon turşusunun trietilentetraamin amidinin $C_6H_{13}Br$ kompleksi	0.5	2.0-2.2
		0.25	+++
Yoxlama nümunə-YSM		–	+++

Qeyd: (+++) – mikroorqanizmlərin inkişafı

Sınaq nəticələrinə əsasən qeyd etmək olar ki, tədqiq olan birləşmə antifunqal xassəyə malik birləşmədir.

Ədəbiyyat

1. Кязимзаде А.К., Нагиева Э.А., Гадиров А.А. и др. Азотсодержащая присадка к моторным маслам. Нефтепереработка и нефтехимия, 2020, №8, С. 22-23.
2. Babayeva V.H. Norborn-5-en-2-karbon turşusu imidazolinin heksilbromidlə komplekslərinin sintezi, biokorroziya prosesinə təsirinin tədqiqi, Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər. Təbiət və tibb elmləri seriyası. Naxçıvan, NDU,"Qeyrət"–2019, № 3 (100), s. 161-166.
3. Велиева С.М., Кулалиев И.Д., Садирзаде И.А.,Зейналова Н.Н.Много-функциональные композиционные присадки к смазочным маслам. Азербайджанское нефтяное хозяйство, 2019, № 3, с. 50-52.
4. Alimardanov Kh.M., Sadygov O.A., Babaev N.R., Ismailova Sh.I., Sultanova S.A. N-substituted aminomethoxybicyclo[2.2.1]heptanolsand their antimicrobial activity in lubricating fluids and oils. Russian Journal of Organic Chemistry. 2018, Vol. 54, № 3. pp. 382-392.
5. Мамедбейли Э.Г., Гаджиева Г.Э., Ибрагимли С.И., Кахраманова К.Р. Аминометоксипроизводные бицикло[2.2.1]-гепт-2-ена в качестве антимикробных. Нефтепереработка и нефтехимия, 2020, № 1, с. 41-44.

2-HİDROKSİBENZİLARİLAMİNLƏRİN SİNTEZİ VƏ ONLARIN SİNTETİK SÜRTKÜ YAĞLARINDA OKSİDLƏŞMƏ ƏLEYHİNƏ TƏSİRİ

Ə.Ə. Qədirov, E.Ə.Nağıyeva, M.N. Əliyeva, S.S. Əfəndiyeva
AMEA akad. Ə.M. Quliyev adına Aşqarlar Kimyası İnstitutu
e-mail: aki05@mail.ru

Aviasiya sürtkü yağlarının uzunmüddətli istifadəsi zamanı, xüsusilə də yüksək temperaturlarda istismar xassələrinin tələblərə uyğun olması neft kimyasının ən birinci məsələlərindəndir.

Bu səbəbdən, sürtkü yağlarının hazırlanmasında onun baza əsası ilə yanaşı oksidləşməyə davamlı effektli antioksidləşdirici aşqarların da seçimi mühüm rol oynayır.

Ədəbiyyatda molekulunun tərkibində fenol və azot olan uzvi birləşmələr ən çox geniş tətbiq sahəsi tapan antioksidləşdirici aşqarlardandır. Həmçinin, məlumdur ki, amin və hidroksil qrupları eyni molekulada olduqda həmin uzvi birləşmələr-aşqarlar bir çox hallarda effektivliyinə görə daha üstün olurlar [1].

Hazırki işin məqsədi bəzi 2-Hidroksibenzilarilaminlərin sintezi və onların sintetik sürtkü yağların oksidləşməsinə inhibitor təsirini yoxlamaqdan ibarətdir.

2-Hidroksibenzilarilaminlər Şiff əsaslarının ikiqat azometin rabitəsini əlverişli üsulla hidrogenləşdirilməklə alınmışdır.

İlkin mərhələdə məlum metodla salisil aldehidi ilə aromatik və ya alkilaromatik aminlərin kondensləşməsindən Şiff əsasları alınaraq, sonradan isə natrium borhidridlə [2]. hidrogenləşdirilmişdir.

Reaksiyanın sxemi aşağıdakı kimidir:



R=$C_6H_5CH_2CH_2$–, p–$CH_3C_6H_4$–, p–$CH_3OOCC_6H_4$–, p–$C_4H_9OOCC_6H_4$–, α–$C_{10}H_7$ –

Sintez edilmiş birləşmələrin quruluşları İQ-spektroskopiya ilə təsdiq edilmişdir.

Aşqar kimi təklif edilən üzvi birləşmələrin sintetik yağların termooksidləşdirici stabilliyinə təsiri 23797-79 saylı GOST-la əlvan metallar - mis, alüminium və dəmir lövhəciklərin iştirakı ilə 225^0C-də 20 saat müddətində sınaqdan keçirilərək öyrənilmişdir.

Sintetik yağ olaraq ПЭЭ (Pentaeritrit efiri) götürülmüşdür.

Yoxlanılan aşqarların molekul quruluşunun (funksional qrupların) prosesə təsirinin qiymətləndirilməsinə cəhd edilmişdir.

Müəyyən edilmişdir ki, inhibitor kimi təklif olunan birləşmələr - təcrübi nümunələr aparılan sınaq şəraitində sintetik yağların stabilliyini artırır, həm də oksidləşmədən sonra çöküntü əmələ gətirmir və metal lövhəciklərin korroziyası baş vermir.

ƏDƏBİYYAT

1. Кулиев А.М. Химия и технология присадок к маслам и топливам. Л.: Химия, 1985. 312с.
2. Hikmət Agirbas, Berat Kemal, Fatma Budak, Med. Chem. Res. (2011) 20(8), 1170–1180

TİETANLARIN YENİ TÖRƏMƏLƏRİNİN SİYRİLMƏ VƏ YEYİLMƏYƏ QARŞI XASSƏLƏRİ

Z.T.İsrafilova, S.S.Babayev, N.M.Nəzərov, L.N.Əliyeva

AMEA-nın akad. Ə.M. Quliyev adına Aşqarlar Kimyası İnstitutu

mammadovazibeyda@gmail.com

Transmissiya yağlarının keyfiyyətini yaxşılaşdırmaq üçün tərkibində kükürd, fosfor, azot, xlor və digər elementlər olan aşqarlardan istifadə edilir. Qeyd etmək lazımdır ki, transmissiya yağının siyrilmə və yeyilməyə qarşı xassələrini yaxşılaşdırmaq üçün bu və digər səviyyədə kükürd üzvi birləşmələrindən bu günə qədər istifadə olunmaqdadır. Belə aşqarlara mezulfol-11 [etilen-bis-(amilksantogenat)], ЛЗ-23k [etilen-bis-(izopropilksantogenat)], ЛЗ-6/9 [etilen-bis-(izoamilksantogenat)], ОТП (kükürdləşmiş propilen tetrameri), ОТ (kükürdləşdirilmiş terpen), АБС [bis-(alkilbenzil)disulfid], dibenzildisulfid və s. misal göstərmək olar [246-247].

Tərkibində kükürd və azot olan aşqarların arasında ən yüksək yağlayıcı qabiliyyətinə AMEA AKİ-də yaradılmış ИХП-14A (S-allil-N,N-dietilditiokarbamat) və ИХП-14M (S-metallil-N,N-dietilditiokarbamat) [248-249] aşqarlarını misal göstərmək olar.

Göründüyü kimi, qeyd etdiyimiz yeyilmə və siyrilməyə qarşı xassəsinə malik olan aşqarların əksəriyyətinin tərkibinə ditiofosfat, ksantogenat və ditiokarbamat fraqmentləri daxildir. Məhz həmin fraqmentlərin hesabına yuxarıda adları sadalanan aşqarlar transmissiya yağının yeyilmə və siyrilməyə qarşı xassələrini yaxşılaşdırır.

İndiyə qədər məlum yeyilmə və siyrilməyə qarşı aşqarların tərkibindəki kükürd ya sulfid və ya tion formasında olur. Lakin sintez etdiyimiz birləşmələrin tərkibindəki kükürd tietanlarda dördüzvlü halqada, tiiranlarda isə üçüzvlü halqada yerləşir. Digər tərəfədn, ditiofosfat, ksantogenat, ditiokarbamat funksional qrupları daşıyan molekullarına tietan və tiiran fraqmentlərinin əlavə olaraq daxil edilməsi, şübhəsiz, həmin birləşmələrin daxili sinergizm hesabına daha yüksək effektliyə malik yeni yeyilmə və siyrilməyə qarşı aşqarların yaradılması işinə kömək edəcəkdir.

Sintez edilmiş birləşmələrin quruluşu ilə onların effektivliyi arasındakı əlaqəni müəyyən etmək məqsədilə 0,025 və 0,034 mol miqdarında aşqarın 100qr MS-20 yağında məhlulu hazırlanmış və sınaqdan keçirilmişdir.

Cədvəl

3-Ariloksiəvəzli tietanların MS-20 yağının siyrilmə və yeyilməyə qarşı xassələrinə göstərdiyi təsiri xarakterizə edən göstəricilər

Birləşmənin №-si	Birləşmənin formulu	Aşqarın qatılığı, % (0,034 mol)	İs	P_b, N	P_q, N	D_y, mm
		5,70	56	1234	3097	0,62
1		6,70	58	1234	3152	0,51
2		6,83	52	1150	3160	0,57
3		7,34	59	1290	3152	0,49
4		7,34	58	1234	3152	0,51
5		8,00	57	1240	3381	0,54
6		8,00	59	1247	3381	0,56
7		9,00	63	1382	3900	0,58
	MS-20 yağı	–	31	744	1558	0,77

TİOKARBON TURŞULARI EFİRLƏRİNİN SİNTEZİ VƏ AŞQAR KİMİ TƏDQİQİ

B.İ.Musayeva, G.G.İsmayılova
AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
E-mail: gunay.ismayilova87@mail.ru

Bakı baza yağlarının tərkibinə aşqarlar əlavə etməklə onların keyfiyyətinin yaxşılaşdırılması problemi neft kimyası və neft emalının aktual vəzifələrindən biridir. Aşqarların effektivliyi onların tərkibindən və quruluşundan asılıdır.

Tiokarbon turşularının törəmələri sürtkü yağlarına aşqarlar kimi xalq təsərrüfatının müxtəlif sahələrində – flotasiya agentləri, biosidlər, insektisidlər, rezin vulkanizasiya sürətləndiriciləri, polimer materiallara əlavələr və plastik sürtkülərdə geniş istifadə olunan birləşmələrdən biridir.

Daha effektli triboloji xassələrə malik, onların strukturu ilə səmərəliliyi arasında əlaqəni müəyyən etmək üçün tritiokarbon turşularının yeni efirləri alınmışdır.

Tritiokarbon turşusu törəmələrinin effektivliyinə –S–C(S)–S–fraqmenti ilə əlaqəli müxtəlif polyar qrupları əhəmiyyətli dərəcədə təsir göstərir.

Yağların triboloji xüsusiyyətlərini yaxşılaşdıran aşqar kimi elektroakseptor CH_2=CH-CH_2- allil və polyar C=O karbonil qrupları olan tritiokarbon turşusu efirlərini alınmış və tədqiq edilmişdir. Sintez aşağıdakı sxem üzrə aparılmışdır



R=C_4H_9 (II): C_5H_{11} (III)

Alkiltritiokarbon turşularının alliloksikarbonilmetil efirlərinin siyirilmə və yeyilməyə qarşı xassələri dördkürəli sürtünmə maşınında (ЧМТ) ГОСТ 9490-75 üzrə diametri 12,7 mm olan ШХ-15 markalı polad kürəciklərdə (yuxarı kürəciyin fırlanma sürəti 1420 dövr/dəqiqə) təyin edilmişdir. Sınaq göstəriciləri – siyirilmə indeksi ($И_з$), böhran yükü (P_k), qaynaq yükü (P_c) və 1 saat ərzində 392N təzyiqdə sıxılan üst kürəciyin alt kürəciklərə yaratdığı yeyilmə izinin diametrindən ($Д_и$) ibarətdir.

Sınaqlar aşqarın 5% qatılığında ТБ-20 yağında aparılmışdır.

Alınmış efirlərin korroziyaya qarşı xassələri ГОСТ 2917-76 üzrə 3 saat ərzində, mis lövhədə 120^0C-də tədqiq edilmişdir. Mis lövhə üzərində korroziyalılıq ballarla və lövhənin növü ilə vizual olaraq qiymətləndirilmişdir.

Maddələrin kimyəvi quruluşu İQ- və NMR spektroskopiya üsulu ilə təsdiqlənmişdir.

Sınaq nəticələrindən məlum olmuşdur ki, alkiltritiokarbon turşusunun alliloksikarbonilmetil efirləri yağın triboloji xüsusiyyətlərini əhəmiyyətli dərəcədə yaxşılaşdırır və siyirilmə xassələrinə görə ksantogenat turşusunun efirlərindən çox üstündür.

2,6-*BİS*(ARİL)HEKSAHİDRO-1,3,5-TRİAZİN-4-ON SİNTETİK ANTİOKSİDANT KİMİ

Z.Yunusova[1], D.R. Əliyeva[1], G.M. Məhərrəmova[1], N.M. Qriqoryeva[2], Ə.R.Sucayev[2]

[1]AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu

[2] AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu

zumrudy1993@gmail.com

Ədəbiyyat məlumatlarına görə, triazin tərkibli heterotsiklik birləşmələr antiseptik, ağardıcı, partlayıcı və digər xassələrə malikdir. Onların çoxsaylı ketotörəmələri fizioloji fəallıq da göstərirlər. Məsələn, tibdə 5-azasitidin adlanan 4-amino-1,3,5-triazin-2-on ribofuranozidi şiş və leykemiya əleyhinə tibbi klinikada istifadə olunur. 6-Metilamino-1-metil-3-tsikloheksil-1,3,5-triazin-2,4-on və ya heksazinon xalq təsərrüfatında herbisid kimi alaq otlarının məhv edilməsində tətbiq olunur. Onların bəzi törəmələri həmçinin effektiv antioksidantlardır.

Yuxarıda sadalananları nəzərə alaraq, üçkomponentli kondensləşmə reaksiyası ilə 2,6-bis(fenil)heksahidro-1,3,5-triazin-4-onun sintezi nümunəsində optimal şərait tapılmışdır. Məlumat üçün qeyd edək ki, mürəkkəb proses olan üçkomponentli reaksiya zamanı məqsədyönlü maddə ilə yanaşı, əlavə maddələrin alınması ehtimalı böyükdür. Konkret olaraq 2,6-*bis*(fenil)heksahidro-1,3,5-triazin-4-onun sintezi gedişində azometinlər də əmələ gəlir ki, bu da əsas maddənin çıxımını azaldır. Lakin həmin reaksiya üçün tapılan optimal şərait 2,6-*bis*(fenil)heksahidro-1,3,5-triazin-4-onun çıxımını 75-80 %-ə qədər artırmağa imkan verir.



Təcrübi olaraq kolbada 0.6 q karbamid, 10 ml izopropil spirti və 4 q benzaldehid sürətlə qarışdırırıq. Sonra reaksiya qarışığı üzərinə damcı-damcı 1.7 q ammonyakın 33.5%-li suda məhlulu əlavə edilir. Qarışıq 3 saat müddətində 25°C temperaturunda qarışdırılır. Reaksiyanın gedişinə nazik təbəqəli xromotoqrafiya ilə nəzarət edilir. Reaksiyanın başa çatdığı müəyyən olduqdan sonra qarışıq 24 saat otaq temperaturunda saxlanılır və ağ kristallar çökür. Çökmüş 2,6-*bis*(fenil)heksahidro-1,3,5-triazin-4-onun ağ kristalları süzülərək ayrılır və dixlor metanda yuyulduqdan sonra etil spirtində kristallaşdırılır.

Sintetik bioloji aktiv maddə kimi bu yeni birləşmənin bitkinin antioksidant müdafiə sisteminə təsirinin tədqiqi nəticəsində onun patogenlə yoluxma zamanı bitki hüceyrələrində normal metabolizmi təmin edən optimal qatılığı müəyyən olunmuşdur.

Qeyd: Bu iş SOCAR "Elm Fondu"nun qrant layihəsi (Müqavilə № __LR – AMEA, 05.01.2022) çərçivəsində yerinə yetirilmişdir.

OBTAİNİNG AND STUDYİNG NEW CATALYSTS FOR BİODİESEL PRODUCTİON

M.M.Movsumzadeh, L.R.Mahmudova, N.A.Aliyev, I.M.Eyvazova, Z.B.Guliyeva, G.S.Kazimova

ANAS acad. A.M.Guliyev Institute of Chemistry of Additives

There has been recently observed an increasing interest in the search for and development of new fuels. One of the main reasons for this, according to world scientists, is the gradual reduction of oil reserves. On the one hand, the possibility of depletion of crude oil - the main source of thermal energy, on the other hand, the violation of the ecological balance and excessive pollution of the atmosphere are the most important global problems of our time. Therefore, since the 1990s, extensive research has been launched in a number of countries to develop new fuels that are an alternative to petroleum products. One of the interesting researches in this field is the production of biofuels (biodiesel) from vegetable oils and animal fats for diesel engines. Biodiesel, obtained from the transesterification of vegetable oils with low-molecular alcohols has a number of advantages in comparison with diesel fuel derived from petroleum, one of which is ecological safety, as during its production and operation the environment is not polluted with harmful substances.

In some European countries biodiesel obtained from vegetable oils is added at a concentration of 5-7% to petroleum-based fuels. In the near future, it is planned to increase the production of diesel fuel to 15-20%.

The thesis is devoted to obtaining and studying new quality catalysts for increasing the yield of biodiesel obtained from the process of transfection of vegetable oils with alcohols.

According to the literature, biodiesel is obtained from the reaction of trans fats of vegetable oils with alcohols (methyl, ethyl) in the presence of homogeneous and heterogeneous acids and basic catalysts. In this case, the use of heterogeneous catalysts is preferred. Because, unlike homogeneous, when using heterogeneous type catalysts, the products obtained are easily separated from the catalyst, they do not need to be washed and dried several times with water. This is both economically and environmentally beneficial.

Taking into account the above mentioned, for the first time for the production of high-yield biofuels from vegetable oils (sunflower, corn and cotton) highly efficient CaO nano-particles (5-10 nm) were obtained, their dimensions and projections were studied using a semi-contact Atomic Force Microscope. It has been found that using 1.5% (per oil) of CaO nano-particles as a catalyst in the production of biodiesel from vegetable oils, the yield of biodiesel increases from 65 to 95% [1].

Continuing research in this direction, two more catalysts ($La_2(SO_4)_3/TiO_2$ and $CeO_2/\gamma Al_2O_3$) were obtained.

References

Azerbaijan Respublic Patent I 2015 0076. Movsumzadeh M.M., Ahmadov I.M., Mahmudova L.R., Aliyev N.A., Eyvazova I.M. Method for obtaining a catalyst for transesterification reactions of vegetable oils

OKSAZOLİDİN VƏ OKSAZİNİN AZİDOMETİL TÖRƏMƏLƏRİNİN SİNTEZİ VƏ TƏDQİQİ

V.M.Fərzəliyev, O.Q. Nəbiyev, M.T.Abbasova, L.R.Səfərova, Q.M.Quliyeva, G.S.Kazımova, N.A.Əliyeva, S.F.Məlikova

AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu

aki05@mail.ru

Tərəfimizdən aparılan çoxsaylı tədqiqatlar göstərir ki, tərkibində “baglı” şəkildə “formaldehid saxlayan” N,S,O-heterotsiklik birləşmələrin törəmələri neft məhsullarını zədələyən mikroblara qarşı yüksək effektliyə malikdir [1].

Mikroorqanizmlərə qarşı daha yüksək effektliyə malik olan yeni üzvi maddələrin sintezinə ehtiyac olduğuna görə tərəfimizdən ilk dəfə olaraq yeni üsulla oksazolidin və oksazinin azidometil törəmələrini (**1, 2**) sintez etmişik. Reaksiya aşağıda göstərilən sxemlə gedir:



1, 2

R= i-Pr

n=0 - N-azidometiloksazolidin (**1**)

n=1 - N-azidometiloksazin (**2**)

Reaksiyalar N-*izo*-propiloksimetiloksazolidinə və yaxud N-*izo*-propiloksi-metiloksazinə adi şəraitdə (20°C, atmosfer təzyiqi) damci-damci üçmetilsililazid əlavə etməklə aparılır. Azidometiloksazatsikloalkanları alkiloksimetiloksazatsikloalkanlardan sintez etmək olar, lakin alkil radikalı ağırlaşdıqca məqsədyönlü maddənin çıxımı azalır.

Alkiloksimetiloksazolidin və alkiloksimetiloksazin törəmələrini müvafiq aminospirtlərin formaldehid və spirtlərin üçkomponentli kondensasiya reaksiyalarından almışıq [2]:



n=0 - metilen-bis-oksazolidin

n=1 - metilen-bis-oksazin

Qeyd etmək lazımdır ki, bu kondensasiya reaksiyasından əlavə maddə kimi metilen-bis-oksazolidin və metilen-bis-oksazin alınır.

Sintez edilmiş birləşmələrin kimyəvi quruluşu NMR ^{1}H, ^{13}C – və İQ- spektroskopiya, təmizlikləri isə qaz-maye xromatoqrafiya üsulu ilə təsdiq olunmuşdur.

Alınmış azidometil törəmələrinin bioloji xassəsi M-12 texniki yağının tərkibində öyrənilmişdir. Mikrobioloji sınaqlar nəticəsində müəyyən olunmuşdur ki, bu maddələr yüksək bakterisid və funqisid xəssəyə malikdirlər və 0.5 % qatılıqda yağı zədələyən bakteriyaları və göbələkləri tam məhv edir.

Ədəbiyyat

1. В.М. Фарзалиев, М.Т. Аббасова, А.А. Ашурова, Г.Б. Бабаева, Н.П. Ладохина, Я.М. Керимова./ Журнал прикладной химии. – 2009. – Т. 82. Вып. 5. – С. 871-874.
2. В.М. Фарзалиев, М.Т. Аббасова, З.К. Солтанова, Г.Б. Бабаева, Н.П. Ладохина/ Azərb. Kimya jurnalı. – 2005. – № 4. – S. 23-26.

AMİN TƏRKİBLİ ASETİLEN SIRA BƏZİ BİRLƏŞMƏLƏRİN KİMYƏVİ VƏ BAKTERİSİD XASSƏLƏRİNİN TƏYİNİ

M.İ.Şatirova[2], U.Ş.Cəfərova[1], İ.M.Eyvazova[1], G.S.Kazımova[1]
[1]AMEA akad. Ə. Quliyev adına Aşqarlar Kimyası İnstitutu,
[2]AMEA-nın Polimer Materialları İnstitutu
e-mail: ulduz.ceferova.82@mail.ru

Üzvi birləşmələrdə qapalı həlqənin əmələ gəlməsində karbon atomları ilə yanaşı digər element (azot, oksigen, kükürd və b.) atomları da iştirak edərsə, onlar heterotsiklik birləşmələr adlanır. Heterotsiklik birləşmələr doymuş, doymamış və aromatik olmaqla üç qrupa bölünür. Üzvi kimyada doymamış heterotsiklik birləşmələr mühüm kimyəvi aktivliyə malik digər üzvi birləşmələrin alınmasında perspektivli monomer, ilkin reagent kimi

əhəmiyyətli rol oynayır. Onların əsasında sintez olunmuş birləşmələrin yanacaqlara aşqar kimi tədqiqi, bakterisid xassələrinin öyrənilməsi sahəsində çox əhəmiyyətli tədqiqatlar aparılır. Bu tədqiqatların davamı olaraq tərkibində karbon tsikli ilə yanaşı amin qrupu olan birləşmələrin fiziki, kimyəvi xassələrinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.Bu birləşmələrin tərkibində reaksiya qabiliyyətinə malik karbon həlqəsi, amin qrupu və asetilen rabitəsinin olması onların tədqiqini daha da maraqlı edir. Təqdim olunan iş tərkibində asetilen rabitəsi və amin qrupu olan yeni birləşmənin sintez olunmasına və bakterisid xassəsinin təyin olunmasına həsr olunmuşdur.



İQ spektr vasitəsilə alınmış birləşmədə C≡C, C-Cl, O-H rabitələri üçün xarakterik olan udulma zolağı 2235-2250, 3360-3460, 760-600 sm^{-1} sahələrində təyin olunmuşdur. Sintez olunmuş birləşmələrdən nümunələr götürülmüş yanacaqlarda aşqar kimi xassələrinin öyrənilməsi üçün müvafiq sınaqlar aparılmışdır.

Ədəbiyyat

1. Кашковский Р. В., Игошин Р. В.,Саяпин А. О. // Коррозия: материалы, защиты. 2018. № 8. С. 25
2. Фролова Л. В., Кузнецов Ю. И., Андреев Н. Н. // Коррозия: материалы, защиты. 2017. № 1. С. 31
3. Ali S. A., Al-Muallem H. A., Saeed M.T., Rahman S. U. // Corrosion Science. 2008. V. 50. P. 187

ALKİLFENOLYAT TİPLİ DETERGENT-DİSPERSEDİCİ AŞQARLARIN OKSİDLƏŞMƏYƏ QARŞI DAVAMLILIQ XASSƏLƏRİNİN TƏDQİQİ

V.M.Fərzəliyev, H.Ə.Cavadova, Y.B.Ramazanova
AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
E-mail: pishnamazzadeh@mail.ru

Motor yağlarının tətbiq sahələrindən asılı olmayaraq istismar prosesində oksidləşmə zamanı yaranan turş məhsulların neytrallaşmasını təmin edən alkilfenolyat, alkilsalisilatların müxtəlif törəmələrindən geniş miqyasda istifadə olunur. Qeyd olunan birləşmələr tərkibində müxtəlif qruplar və aktiv elementlərdən ibarət (N, P, S, B) aşqarlardır.

Alkilfenol və kükürdləşmiş alkilfenolların formaldehid və müxtəlif aminlərlə kondensləşmə məhsullarından alınan kalsium duzları AKİ seriyalı – AKİ-114, -140, -150, -209, -218, -219 və s. və onların karbonatlaşmış nümunələrinin oksidləşməyə qarşı davamlılıqları tədqiq edilmiş, müqayisəli sınaqlar 120^0C, 140^0C, 200^0C temperatur və 30, 40 saat müddətində АПСМ-1М aparatında (ВТИ ГОСТ 981-75) aparılmışdır.

Sınaq nəticələri oksidləşmiş yağda çöküntünün (%), turşu ədədinin (mqKOH/q), uçucu aşağı molekullu turşuların (mqKOH/q) təyini ilə alınan göstəricilərə əsaslanaraq qiymətləndirilmişdir.

Müəyyən edilmişdir ki, yüksək qələvi ədədinə malik detergent-dispersedici aşqarların AKİ-150 (q.ə.150 mqKOH/q), istismarından alınan çöküntünün miqdarı 0,0732%, aşağı qələvi ədədinə malik olan aşqarların AKİ-140 (105 mqKOH/q) istismarından alınan

çöküntünün miqdarından 0,0987% azdır. Eyni fərq sınaq üçün götürülmüş bütün nümunələrdə müşahidə olunur(cədvəl).

AKİ seriyalı aşqarların orta və yüksək qələvi ədədinə malik nümunələri onların karbonatlaşdırılmış birləşmələridir. Kondensləşmə reaksiyasına daxil edilən aminlərin (monoetanol, dietanol, benztriazol) müqayisəsi göstərir ki, benztriazoldakı heterotsiklik – halqadaxili aminlərin təsiri açıq halqali ikili aminlərdən üstündür.

Müəyyən heteroatomlar və funksional qruplar saxlayan alkilfenol birləşmələrinin oksidləşməyə qarşı davamlılığının sınaq müddətinin 30, 40 saat və temperaturun 120^0C-dən 200^0C-dək artırılmasında məqsəd, oksidləşmə prosesindən alınan çöküntünün faizinin korrelyasiyasına əsasən bu aşqarların antioksidant xassələrinin müəyyən edilməsidir.

Tədqiqat nəticələri, AKİ seriyalı aşqarların bor turşusu ilə işlənmiş nümunələri eyni zamanda motor yağlarının analoqlarının yaradılmasında bəzi funksional - korroziya, yağlayıcı və s. xassələrinə qismən üstünlüklər verir və korroziyaya qarşı aşqarların istifadəsində onların qatılıqlarının müəyyən dərəcədə azalmasına imkan verir.

AKİ seriyalı aşqarlarla işlənib hazırlanmış sürtkü kompozisiyalarının oksidləşmə xassəsi ГОСТ 11063 üzrə ДК НАМИ qurğusunda çöküntü əmələ gəlmənin induksiya dövrü üzrə aparılan sınaqlarda alınan çöküntünün miqdarının 0,5%-dən aşağı olması ilə müəyyən edilmişdir ki, bu göstərici yüksək detergent-dispersedici, oksidləşməyə davamlılıq xassələrinə malik alkilfenolyat tipli aşqarların müxtəlif funksiyalı aşqarlarla sürtkü kompozisiyasının yaradılmasını tələb edir.

Cədvəl

AKİ seriyalı detergent-dispersedici aşqarların müxtəlif temperatur və saatlarda oksidləşməyə qarşı davamlıq xassələrinin tədqiqi

Aşqarlar	120^0C, 30 saat	120^0C, 40 saat	140^0C, 40 saat	200^0C, 30 saat
	Çöküntünün miqdarı, %	Çöküntünün miqdarı, %	Çöküntünün miqdarı, %	Çöküntünün miqdarı, %
AKİ-140	0,0987	0,1918	0,1594	3,2866
AKİ-150(k)	0,0732	0,1182	0,1182	2,2055
AKİ-209	0,0334	0,0620	0,2304	4,9328
AKİ-218(k)	0,0282	0,0844	0,0946	4,4175
AKİ-144	0,1930	1,760	0,8098	5,5598
AKİ-154(k)	0,1620	0,0078	0,0078	4,4115
AKİ-210B	0,0500	0,0078	0,1574	5,1353
AKİ-219B(k)	0,215	0,1574	0,0078	4,7761
AKİ-114	0,0731	0,0757	0,8825	3,1266
AKİ-130(k)	0,0422	0,0962	0,5231	4,3688

3,2-EPOKSİPROPİL-1-İZOBUTİL EFİRİ ƏSASINDA İKİLİ AMİNLƏRLƏ BİR SIRA AMİN TÖRƏMƏLƏRİNİN SİNTEZİ VƏ SÜRTKÜ YAĞLARINA MÜHAFİZƏEDİCİ AŞQAR KİMİ TƏDQİQİ

V.M.Fərzəliyev, Ş.R.Əliyev, R.M.Babayi, R.F.Məmmədova, Q.M.Quliyeva, Q.Ş.Eyvazova

AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu

aki05@mail.ru

Avtotraktor, aviasiya və eləcə də müxtəlif növ texnikalar istismar zamanı işdə müəyyən fasilələr edir, hərgah bu müddət ərzində metalların yağlanmış səthlərində yağ təbəqəsinin altinda gedən elektrokimyəvi korroziyaya qarşı xüsusi mühafizə tədbirləri görülməzsə, bu zaman elektrokimyəvi korroziyanın inkişaf etməsi qaçılmazdır. Metalların səthinin zədələnməsinə qarşı əsas mübarizə üsulu tərkibində yüksək təsirli mühafizəedici üzvi birləşmələr saxlayan konservasiya və işçi-konservasiya yağlarıdır.

Ədəbiyyat araşdırmalarından məlumdur ki, mühafizəedici üzvi birləşmə kimi tərkibində müxtəlif funksional qruplar və N-, S- kimi heteroatomlar saxlayan birləşmələrdən istifadə olunur. Bu birləşmələr səthi-aktiv maddələr (SAM) olub, metalları elektrolit-neft məhsulu- metal sistemində elektrokimyəvi korroziyadan mühafizə edir.

Ədəbiyyatda olan boşluqları doldurmaq üçün yağlara daha yüksək təsirli mühafizəedici aşqarların sintezini təmin etmək məqsədilə ilkin maddə kimi 3,2-epoksipropil-1-izobutil efiri götürülmüşdür. Bu ilkin maddə, 3-xlor-2-hidroksipropil-1-izobutil efirinə NaOH ilə təsir etməklə alınır. Sinton maddə 3,2-epoksipropil-1-izobutil efirinə ikili alifatik və heterotsiklik aminlərlə təsir etməklə bir sıra aminometil törəmələri alınmışdır.

Reaksiyalar aşağıdakı sxem üzrə aparılmışdır :



Sintez edilmiş birləşmələrin quruluşu və tərkibi ^{1}H, ^{13}C NMR spektroskopiya üsulu və element analizi ilə təsdiq edilmişdir.

Sintez edilmiş dialkilamino-2-hidroksipropil-1-izobutil efirlərinin mühafizəedici aşqar kimi sınaqları ГОСТ 9.054-75-də göstərilmiş metodika üzrə kompleks tədqiqatlar sisteminə daxil olan rütubət kamerasında (Г-4) , dəniz suyunda və HBr turşusunun 0.1%-li məhlulunun təsirində aparılmış və qiymətləndirilmişdir.

Sınaqların nəticələri göstərmişdir ki, 3,2-epoksipropil-1-izobutil efiri əsasında alınan ikili heterotsiklik amin törəmələri, alifatik amin törəmələrinə nisbətən daha yüksək mühafizəedici xassəyə malikdir.

Beləliklə, aparılmış tədqiqatlar göstərmişdir ki, morfolino-, piperidino-2-hidroksipropil-1-izobutil efirlərindən işçi-konservasiya yağlarının yaradılmasında istifadə etmək olar.

BİSBUTİLKSANTOGENATLARIN SİNTEZİ VƏ TRİBOLOJİ XASSƏLƏRİNİN TƏDQİQİ

X.Q.Əfəndiyeva, M.R.Səfərova, M.Ə.Musayeva, İ.P.İsmayılov, B.M.Əminova, A.N.Hümbətzadə

AMEA akad. Ə.Quliyev adına Aşqarlar Kimyası İnstitutu

E-mail: xuraman.efendiyeva@mail.ru

Neft-kimya sahəsində aparılan elmi tədqiqatların mühüm istiqamətlərindən biri kükürd-, azot-, fosfortərkibli maddələrə fuksional qruplar daxil etməklə, yeni maddələrin sintezi və sürtkü yağlarında müxtəlif təyinatlı aşqar kimi tədqiqidir. Aparılan işlərin davamı kimi bis(1,3)butilksantogenatopropan birləşmələri sintezi edilmişdir.

İlkin olaraq məlum üsulla [1] epixlorhidrinə 37%-li hidrogen xlorid turşusunun qarşılıqlı reaksiyasından 1,3-dixlorizopropanol alınmışdır



Daha sonra 1,3-dixlorizopropanol, paraform və butil spirtinin qarşılıqlı təsirindən 2-butoksimetoksi -1,3-dixlorizopropan maddəsi alınmışdır.



Alınan 2-hidroksi 1,3-dixlorizopropan və 2- butoksimetoksi -1,3-dixlorizopropanın kalium butilksantogenatla aşağıda verilən sxem üzrə reaksiyaları aparılmışdır.



Sintez edilmiş birləşmələr kalonka-xromatoqrafiya üsulu ilə təmizlənmiş, quruluşu İQ və NMR spektrlərilə təsdiq edilmişdir.

Bisbutilksantogenatların triboloji xassələri PETROTEST şirkətinin dördkürəli sürtünmə maşınında MC-20 yağının tərkibində ГОСТ 9490-75 üzrə diametri 12,7 mm olan ШХ-15 markalı polad kürəciklərdə təyin edilmişdir.

Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, sintez olunmuş bisbutilkilsantogenatlar [2] sürtkü yağlarının yeyilmə və siyrilməyə qarşı xassələrini yaxşılaşdırır və aşqar kimi tətbiqi tövsiyə edilə bilər.

Ədəbiyyat

1.Patent RU 2263656 C 1, 2005 .

2.Azərb. Respub.Patent İ 2021 0005.

МНОГОФУНКЦИОНАЛЬНЫЕ ПРИСАДКИ К СМАЗОЧНЫМ МАСЛАМ

К.З.Гусейнов[1], Н.А.Алиев[2]
1. Бакинский государственный университет
2. Институт химии присадок им акад. А.М. Кулиева НАН Азербайджана
e-mail: Nusrataliyev38@gmail.com

В настоящее время внимание к соединениям, обладающими многофункциональными свойствами в смазочных маслах возрастает, что обусловлено нововведениями как в двигателестроении, так и в производстве масел.

Известно, что органические соединения, содержащие одновременно аминогруппу и фенольный гидроксил проявляют высокие антиокислительные свойства. С другой стороны щелочноземельные соли карбоновых кислот применяются в качестве моющих присадок к моторным маслам. Следует также отметить, что при производстве некоторых промышленных присадок образуются выбросы, загрязняющие атмосферу, что крайне не желательно.

В целях получения присадок с антикоррозионными и моющими свойствами нами предложен простой, экологически чистый способ, основанный на взаимодействии гидроксидов щелочноземельных металлов с карбоксиметиламинометилалкилфенолом. Последний получен взаимодействием промыщленного алкилфенола с формальдегидом и аминоуксусной кислотой.

Изучено влияние синтезированных соединений - кальциевой и бариевой солей карбоксиметиламинометилалкилфенола на антикоррозионные и моющие свойства масла DC-11.

Установлено, что они обладают высокими антикоррозионными и моющими свойствами и при концентрации присадки 2,5% устраняется коррозионность масла DC-11.

Исследованные соединения не ухудшают других свойств, в том числе индекса вязкости и температуры застывания исследуемого масла DC-11.

Выявлено, что композиция, состоящая из бариевой соли карбоксиметиламинометилалкилфенола и присадки ИХП-21 проявляет высокие антикоррозионные, антиокислительные и моющие свойства.

Так, для масла DC-11 с 2.5% бариевой соли карбоксиметиламинометилалкилфенола и 2.4% присадки ИХП-21 коррозия по методу НАМИ составляет 0.4 г/м^2, моющие свойства по методу ПЗВ равны 0.5 балла, а осадок по ГОСТ 11063-77 составляет 0.61%.

POLİALKENİLSUKSİNİMİD AŞQARIN SİNTEZİ VƏ TƏDQİQİ

E.İ.Həsənova, M.A.Həsənova, R.H.Nəzərov, Q.R.Allahverdiyeva
AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
amea.elnara@mail.ru

Dizel mühərrikli avtomobillər istehsalının sürətlənməsi ilə əlaqədar olaraq sürtkü yağlarının istismar şəraiti sərtləşir ki, bu da öz növbəsində termiki təsirlərə qarşı daha davamlı, daha müasir sürtkü kompozisiyaları işlənib hazırlanmasını tələb edir və istismar şəraitində daha stabil aşqarlar almaq problemini irəli sürür. Məlum aşqarlar içərisində polimer aşqarların xüsusi yeri var, çünkü onlar yağların birgə istismar şəraiti ilə yanaşı özlülük-temperatur xassələrini də yaxşılaşdırır, yəni özlülük indeksinin qiymətini də artırırlar.

Müasir neft kimyasının qarşısında duran aktual problemlərdən biri də ucuz və yerli xammal əsasında müasir tələblərə cavab verən özlülük indeksi modifikatlarının işlənib hazırlanmasıdır. Bu məqsədlə, adətən, etilenin oliqomerləri olan ali α-olefinlərdən istifadə edilir. Məlumdur ki, istismar şəraitində motor yağlarının oksidləşməsi zamanı, nisbətən aşağı temperaturlarda (120-150^{0}C) bərk çöküntülər əmələ gəlir. Bu çöküntülərin əmələ gəlməsinin qarşısını alan yeganə aşqar polialkenilsuksinimidlərdir. Oliqoalkenilsuksinimidlərin sintezində, bir qayda olaraq, molekul kütləsi 800-2000 olan müxtəlif α-olefinlərin oliqomer və ya birgə oliqomerlərindən istifadə edilir. Onların sintezi iki mərhələdən ibarətdir.

1. α-Olefin oliqomerlərinin malein anhidridi ilə kondensləşməsindən oliqoalkenilkəhrəba aldehidinin alınması.
2. Bu anhidridlərin müxtəlif aminlərlə reaksiyasından suksinimidlərin (kəhrəba turşusunun imidi) sintezi.

Lakin qeyd etmək lazımdır ki, bu aşqarlar sürtkü yağlarının digər istismar xassələrini yaxşılaşdırmır. Ona görə də polialkenilsuksinimidlərə bi və ya polifunksional xassə vermək müəyyən aktuallıq kəsb edir.

Apardığımız tədqiqatlar göstərdi ki, heksen-1-inden birgə oliqomeri neft yağlarının özlülük-temperatur və antikorroziya xassələrini yaxşılaşdırır. Bu məqamdan istifadə edərək, göstərilən birgə oliqomerlərdən polialkenilsuksinimidlərin sintezində başlanğıc xammal kimi istifadə etmək qərarına gəldik.

İlk mərhələdə oliqomerin malein anhidridi ilə kondensləşmə reaksiyası aparıldı. Prosesə heksen-1-inden birgə oliqomeri : malein anhidridi nisbətinin, temperaturun, reaksiyanın davametmə müddətinin və oliqomerin molekul kütləsinin təsiri öyrənilərək kondensləşmə reaksiyasının şəraiti müəyyən edildi.

Sintez edilmiş oliqoalkenilkəhrəba anhidridi suksinimid aşqarı alınmasının növbəti mərhələsinə daxil edildi. Amin komponenti kimi etilendiamin, dietilentriamin, karbamid və tiokarbamiddən istifadə edildi.

Sintez edilmiş aşqarın fiziki-kimyəvi xassələri məlum suksinimid aşqarları olan C-5A (poliizobutilen əsasında alınır, ТУ 38101146-77) və ИХП-476 (izobutilen-stirol birgə oliqomeri əsasında alınan aşqarlar) ilə müqayisəli tədqiq edildi. Müəyyən edildi ki, təcrübi nümunələr sənayedə istehsalı olan C-5A aşqarına qoyulan tələblərə cavab verir və əlavə olaraq yağın özlülük indeksinin qiymətini artırmaqla yanaşı, ona antikorroziya xassəsi də verir.

СИНТЕЗ И ИССЛЕДОВАНИЕ НОВЫХ СЕРОСОДЕРЖАЩИХ АЛЬДЕГИДОВ И КЕТОНОВ

К.З.Гусейнов[1], М.Н.Исмайлова[1], М.А.Мирзоева[2], В.М.Кязимов[2]
[1]Бакинский государственный университет,
e-mail: murvtismayilli@gmail.com
[2]Институт химии присадок им. акад. А.М. Кулиева НАН Азербайджана
e-mail: aki05@mail.ru

Ранее нами изучены реакции эфиров меркаптоуксусной кислоты (ЭМУК) с циклоалкенами, *а*-олефинами, эфирами и нитрилами непредельных кислот и исследовано влияние синтезированных соединений на качество смазочных масел.

Выявлено, что многие из них обладают высокими антикоррозионными, антимикробными и смазывающими свойствами.

Представлял определенный интерес синтез производных ЭМУК, содержащих в молекуле наряду сульфидной серы и сложноэфирной группы также $-\underset{\underset{O}{\|}}{C}-CH_3$ и $-\underset{\underset{O}{\|}}{C}-H$ (ацетильную и альдегидную группы), а также исследование их влияния на качество смазочных масел.

С этой целью изучены реакции ЭМУК с кротоновым и коричным альдегидами, а также бензальацетоном.

Реакции проводились в присутствии триэтиламина в качестве катализатора.

Установлено, что как в случае присоединения ЭМУК к альдегидам, так и бензальацетону -C-S- связь всегда образуется у карбониевого иона, находящегося в β-положении. В результате указанных реакций синтезированы серосодержащие альдегиды и кетоны:

3- алкоксикарбонилметилтиобуталы 

,

3-фенил-3-алкоксикарбонилметилтиопропаналы 

,

4-фенил-4- алкоксикарбонилметилтиобутан-2-оны 

Строение снтезированных соединений доказано ПМР-спектрами.

Изучено влияние полученных соединений на эксплуатационные свойства смазочных масел. Установлено, что они обладают высокими антикоррозионными, антимикробными и смазывающими свойствами.

Кроме того, выявлено, что синтезированные соединения обладают высокой ингибирующей эффективностью в кислотных средах.

СИНТЕЗ И ИССЛЕДОВАНИЕ 2-АМИНОМЕТИЛ-4-БЕНЗИЛОКСИФЕНОЛОВ В КАЧЕСТВЕ ИНГИБИТОРОВ КИСЛОТНОЙ КОРРОЗИИ

Ф.А.Мамедов[1], М.А.Мирзоева[1], В.М.Кязимов[1], К.З.Гусейнов[2], Г.С.Кязимова[1], С.Я.Рзаева[1]

[1] Институт химии присадок им.акад.А.М.Кулиева НАН Азербайджана
e-mail: mziyamirzoyeva@mail.ru
[2] Бакинский государственный университет

В литературе имеются множество сведений в области синтеза и изучения органических соединений в качестве присадок к смазочным маслам и ингибиторов коррозии металлов. Особое внимание вызывают аминометильные производные п-алкилфенолов, полученные по реакции Манниха. Среди изученных производных *п-*

алкилфенолов, обладающих антиокислительными, противокоррозионными и др. свойствами, сведения об аминометильных производных *п*-бензилоксифенола отсутствуют.

В этой связи с целью выявления зависимости функциональных свойств оснований Манниха от природы п-заместителей нами проведена реакция конденсации *п*-бензоксифенола со вторичными аминами с участием формальдегида по следующей схеме:



Синтезированные 2-аминометил-4-бензилоксифенолы представляют собой кристаллы бледножелтого цвета .

Указанные соединения были испытаны в качестве ингибиторов кислотной коррозии в различных средах на металлических пластинках Ст-3.

Результаты испытаний показали, что 2-аминометил-4-бензилоксифенолы обладают высокой ингибирующей эффективностью при конц.50-100 мг/л как в двухфазной (электролит-керосин), так и в однофазной (0.1N растворах соляной и серной кислот) средах (Z=95-99%).

SİNTETİK NEFT TURŞULARININ METAL DUZLARININ YOL BİTUMUNA AŞQAR KİMİ TƏDQİQİ

V.M.Abbasov, L.M.Əfəndiyeva, V.X.Musalı, E.K.Həsənov, Ş.R.Məmmədova, X.R.Məmmədova, B.Ə.Babayeva

AMEA akad. Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu

E-mail: vefalepu@mail.ru

İqtisadiyyatın inkişafı ilə əlaqədar olaraq, yol tikintisi və inşaat işlərində istifadə edilən bitumlara tələbat günbəgün artmaqdadır. Dünyanın inkişaf etmiş ölkələrində yol tikintisində bitumlar geniş istifadə olunur [1]. İstehsal olunan neft bitumlarının əsas çatışmazlıqlarından biri mineral materialların səthinə pis yapışmasıdır ki, bu da öz növbəsində onların xidmət müddətini azaldır [2]. Bitumların çınqıla yapışma qabiliyyətini, yəni adgeziya qabiliyyətini yaxşılaşdırmaq məqsədi ilə bir çox adgeziya aşqarlarından istifadə edilir: amidoaminlər, imidazolinlər, amin birləşmələri və onların duzları daha çox istifadə edilir [3]. Bu baxımdan məlum metodika ilə SNT-nin Ba, Al, Ca, Mn duzları sintez edilmiş və ilk dəfə olaraq, bu duzlar bituma aşqar kimi müəyyən faiz miqdarında (0,4 və 0,6%) əlavə olunmaqla tədqiqat işləri aparılmışdır. Yol bitumunun keyfiyyət göstəricilərini yaxşılaşdırmaq məqsədilə xammal olaraq, Azərbaycan neftləri qarışığının 185-330°C-də qaynayan fraksiyasından ayrılmış naften-parafin karbohidrogenlərinin maye fazada havanın oksigeni ilə keçid metal duzlarının katalitik iştirakı ilə oksidləşməsindən alınmış sintetik neft turşuları (SNT) götürülmüşdür [4]. Növbəti mərhələdə SNT əsasında məlum metodika Ca, Mn, Ba, Al duzları sintez

olunmuşdur. Sintez edilmiş duzların bituma aşqar kimi əlavəsində istifadə edilən yol bitumu Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda istehsal olunmuşdur. Sintez olunmuş SNT-nin metal duzları (Ba, Al, Ca, Mn) 0,4 və 0,6% miqdarında yol bitumuna əlavə olunaraq, bitumun keyfiyyət göstəriciləri təyin edilmişdir (cədvəl 1 və 2).

Cədvəl 1

SNT və metal duzları əsasında sintez olunmuş müxtəlif duzların 0,4% miqdarında yol bitumuna əlavə olunması ilə keyfiyyət göstəriciləri

Sıra nöm rəsi	Sintez olunmuş aşqarların yol bitumuna əlavəsi, amidoaminlər	Yumşalma temperaturu, °C	İynə batma dərinliyi, 25°C-də	Dartılma, sm	Kövrəklik temperaturu ,°C	Adgeziya
				25°C		Balla
1	Yol bitumu	48	48	75	-18	3
2	SNT-nin Ba duzu	46,8	51	32,4	-14	2
3	SNT-nin Al duzu	46,2	51	40,4	-24	2
4	SNT-nin Ca duzu	46,7	51	68	-16	2
5	**SNT-nin Mn duzu**	**46,3**	**51**	**57**	**-23**	**2**

Cədvəl 2

SNT və metal duzları əsasında sintez olunmuş müxtəlif duzların 0,6% miqdarında yol bitumuna əlavə olunması ilə keyfiyyət göstəriciləri

Sıra nöm rəsi	Sintez olunmuş aşqarların yol bitumuna əlavəsi, amidoaminlər	Yumşalma temperaturu, °C	İynə batma dərinliyi, 25°C-də	Dartılma, sm	Kövrəklik temperaturu , °C	Adgeziya
				25°C		Balla
1	Yol bitumu	48	48	75	-18	3
2	SNT-nin Ba duzu	46,7	51	34,4	-16	2
3	SNT-nin Al duzu	46,4	52	38	-22	2
4	**SNT-nin Ca duzu**	**46,5**	**51**	**68**	**-17**	**2**
5	**SNT-nin Mn duzu**	**46,2**	**51**	**62**	**-24**	**2**

Cədvəl 1-yə əsasən qeyd etmək olar ki, ən yaxşı aşqar effekti SNT-nin Mn duzu ilə əldə olunur, yəni SNT-nin Mn duzu bitumun istismar xassələrini digər nümunələrə nisbətən daha çox yaxşılaşdırır. Belə ki, bu aşqar bituma 0,4% əlavə edildikdə 25°C-də iynəbatma dərinliyi 51 mm, dartılma 57 sm, yumşalma temperaturu 46,3°C, kövrəklik temperaturu mənfi 23 kimi qiymətlər alır.

Cədvəl 2-dən göründüyü kimi, qatılığın artması ilə bitumun keyfiyyət göstəriciləri daha da yüksəlir. Belə ki, bu zaman yüksək aşqar effekti verən nümunələrin sayı artır: SNT-nin Ca- və Mn duzları. Bu aşqarların 0,6% əlavəsi zamanı 25°C-də iynəbatma dərinliyi 51 mm, dartılma 68 və 62 sm, yumşalma temperaturu 46,5°C və 46,4°C, kövrəklik temperaturu isə, uyğun olaraq, mənfi 17°C və mənfi 24°C qiymətlər alır.

Hər iki cədvələ əsasən qeyd etmək olar ki, bütün sintez olunmuş birləşmələrin az miqdarda yol bitumuna əlavə olunması bitumun adgeziyasını 3 baldan 2 bala qədər dəyişmişdir. Beləliklə, SNT-nin Ca və Mn duzlarının bituma aşqar kimi 0,4 və 0,6% miqdarında əlavəsində bitumun adgeziyası 3 baldan 2 bala dəyişdiyi üçün, bu aşqarın bitumun adgeziyasına qənaətbəxş təsir göstərdiyini söyləmək olar.

ƏDƏBİYYAT SİYAHISI

1. Белова Н.А., Кортовенко Л.П., Страхова Н.А. Добавки в битумы // Вестник Дагестанского государственного технического университета. Технические науки. 2018, Том 45, №3, стр. 175-184
2. Səmədova F.İ., Allahverdiyev Ə.Ə. Azərbaycanın parafinli neft qudronlarından yol bitumunun alınması // Neft emalı və neft kimyası jurnalı, 2008, № 5, s. 43-47
3. Əfəndiyeva L.M., Əliyeva L.İ., Musalı V.X. Sintetik neft turşuları əsasında alınmış amidoaminlərin yol bitumuna aşqar kimi tədqiqi // SDU. Elmi xəbərlər. 2020, C.20, №4, səh. 30-34
4. Abbasov V. M., Aliyeva L.I., Afandiyeva L.M. et all. Aerobic oxidation of naphthene-paraffinic hydrocarbons Of petroleum in the presence of γ-Al_2O_3 modifiedby trasition metals // PPOR, 2020, Vol. 21, No. 1, pp.80-89

ИССЛЕДОВАНИЕ н-ОКТИЛОВОГО МОНОЭФИРА ДИ-н-ЦИКЛОГЕКСИЛБИЦИКЛО[2.2.1]-ГЕПТ-2-ЕН-5,6-ДИКАРБОНОВОЙ КИСЛОТЫ В КАЧЕСТВЕ ПРИСАДКИ К ДИЗЕЛЬНОМУ ТОПЛИВУ

А.Г.Гасанов, С.Г.Алиева, И.Г.Аюбов, Ф.С.Гурбанова, Э.М.Гулиева

Институт нефтехимических процессов им. акад. Ю.Г.Мамедалиева НАН Азербайджана

aqasanov@mail.ru

Алкилирование органических соединений алициклическими спиртами неоднократно сообщалось в научной литературе [1-3]. Так, в работе [1] изучено алкилирование толуола циклогексиловым спиртом. Показано, что при 20^0C в присутствии серной кислоты такое алкилирование приводит к образованию смеси, состоящей из 2 % о-изомера, 2 % м-изомера и 96 % п-изомера. Тогда как в присутствии п-толуолсульфокислоты при тех же условиях образуются 30 % о-изомера, 17 % м-изомера и 53 % п-изомера циклогексилтолуола.

Циклогексилкрезолы были синтезированы с высоким выходом путем алкилирования крезолов циклогексанолом в присутствии хлорной кислоты в качестве катализатора. Также широко изучалось влияние изменения температуры, молярного отношения крезола к циклогексанолу, времени реакции и количества катализатора в реакции. Строение полученных продуктов реакции подтверждено спектральными методами и физико-химическими константами [2].

В патенте [3] предложен способ О-алкилирования фенольного соединения, основанный на взаимодействии указанного фенольного соединения с различными спиртами, в том числе циклическими, в газовой или жидкой фазе в присутствии эффективного количества катализатора, выбранного из ортофосфатов трехвалентных редкоземельных металлов.

В наших исследованиях осуществлено каталитическое алкилирование циклопентадиена циклогексиловым спиртом в присутствии щелочного катализатора с целью получения ди-н-циклогексилциклопентадиена. Реакция осуществлена по нижеследующей схеме:



где R = циклогексил

Изучены физико-химические показатели синтезированного ди-н-циклогексилциклопентадиена; его строение подтверждено методом ИК-спектроскопии.

Полученный циклоалкилзамещенный циклопентадиен в дальнейшем был использован нами в качестве диенового компонента в реакции Дильса-Альдера по следующей схеме:



Определены физико-химические показатели синтезированного аддукта и изучено строение методом ИК-спектроскопии.

Полученный н-октиловый моноэфир дициклогексилнорборнендикарбоновой кислоты был исследован в качестве депрессаторной, антиоксидантной и цетанповышающей присадки к гидроочищенному дизельному топливу. Результаты исследований представлены в табл. 1,2

Таблица 1

Изучение депрессаторных свойств синтезированного моноэфира

Показатели	Синтезированный моноэфир			Гидроочищенное дизельное топливо (без присадок
	0,01 %	0,03 %	0,05 %	
Температура ^{0}C помутнения застывания	минус 8 минус 14	минус 9 минус 17	минус 12 минус 22	минус 9 минус 20

Таблица 2

Изучение антиоксидантных свойств синтезированного моноэфира при концентрации 0,004 %

Показатели	Гидроочищенное дизельное топливо (без присадок)	После добавления эфира
Термоокислительная стабильность, количество осадка, мг/100 мл топлива	9,4	9,6

Как видно из приведенных таблиц, наилучшие результаты наблюдаются в случае применения полученного моноэфира в качестве депрессаторной присадки, тогда как его влияние на антиоксидантные свойства гидроочищенного дизельного топлива существенно не ощущается.

Таким образом, синтезированный моноэфир дициклогексилнорборнендикарбоновой кислоты при концентрациях 0,05 % может быть использован в качестве депрессаторной добавки к дизельному топливу.

Список литературы

1.Batke B., Dathe K., Lauterbach G., Marhoul M. Remarks on the alkylation of toluene by cyclohexanol /B.Batke, K.Dathe, G.Lauterbach, M.Marhoul // Journal fur Praktiche Chemie.- 1987. Vol. 329. N 4.- P. 749-751
2.Ashaduzzaman M., Chowdhury A. M., Saha, M. Synthesis of Cyclohexylcresols by Alkylation of Cresols with Cyclohexanol in the Presence of Perchloric Acid /M.Ashaduzzaman, A.M.Chowdhury, M.Saha // Dhaka University Journal of Science.- 2012. Vol.60. N 2.- P. 195-198.
3.Pat. EP0599688B1, 1994 Process for O-alkylation of phenolic compounds // Laurent G., Janin M., Le Govic A-M., Tirel P.

МНОГОФУНКЦИОНАЛЬНЫЕ ДОБАВКИ К ДИЗЕЛЬНЫМ ТОПЛИВАМ НА ОСНОВЕ РАСТИТЕЛЬНОГО СЫРЬЯ И МНОГОАТОМНЫХ СПИРТОВ

В.М.Аббасов, Т.А.Маммадова, Э.Э.Гасымов, Ш.Я.Айдынова, А.Ф.Тагиева

Институт нефтехимических процессов им. акад. Ю.Г.Мамедалиева НАН Азербайджана

shebnem.ajdynova@mail.ru

Растительное сырье, благодаря своей возобновляемости, отсутствию в его составе серы и канцерогенных углеводородов является подходящей альтернативой нефтяному в плане создания на его основе различных кислородсодержащих продуктов для нефтехимии и нефтепереработки.

Для использования в составе дизельных топлив наиболее распространённым продуктом, получаемым на основе растительного сырья (а именно, растительных масел и их жирных кислот), являются их сложные эфиры, например, этиловые-метиловые эфиры жирных кислот растительных масел, или биодизель), которые, в отличие от простых эфиров (например, метил-, этил-трет-бутиловых, обычно добавляемых только в бензиновые топлива), не приводят к снижению цетанового числа и заметному снижению низшей теплоты сгорания благодаря длинному углеводородному радикалу в их молекулах.

Однако для получения сложных эфиров растительных масел наряду с использованием одноатомных спиртов возможен процесс получения гликолевых эфиров жирных кислот растительных масел, интересных с той точки зрения, что наличие дополнительной ОН-функциональной группы в составе их молекул может обеспечить дополнительные преимущества использования полученных эфиров в качестве добавки к дизельным топливам.

Учитывая вышесказанное, была поставлена задача синтеза моно-этиленгликолевых эфиров триглицеридов рапсового растительного масла (МЭЭРМ) и исследовать влияние содержания ОН-группы в их молекулах на свойства получаемых эфиров и эксплуатационные свойства получаемых композиционных дизельных топлив (табл.1).

Таблица 1

Качественные показатели компаундовисходной дизельной фракции при содержании в ней3-10 % моноэтиленгликолевых эфиров рапсового масла

Показатели	Исходная Дизельная фракция	Содержание моноэтиленгликолевых эфиров рапсового масла		
		3	5	10
Плотность при 20°С, кг/м^3	849.5	852,4	855,8	858,3
Фракционный состав, °С				
50 % перегоняется при	280	275	278	280
90 % перегоняется при	335	340	343	350
96 % перегоняется при	350	355	358	360
Йодное число, г I_2/100 г топл.	0,18	1,19	1,86	2,54
Кинематическая вязкость при 20 °С, мм^2/с	3.23	4,01	4,26	5,01
Температура вспышки °С	73	75	77	79
Кислотность, мг КОН/100 см^3 топл.	0,01	0,23	0,41	0,56
Температура застывания, ºС	-36	-34	-30	-25
Температура помутнения, ºС	-28	-26	-20	-17
Углеводородный состав, % масс.				
ароматические	21,23	19,80	18,1	17,2
парафино-нафтеновые	78,52	77,75	77,78	77,85
непредельные	0,25	2,65	4,12	4,95
Коксуемость 10 % остатка % масс.	0,015	0,0017	0,0020	0,0023
Содержание фактических смол на мг/100 см^3 топл.	5	8,3	10,1	11,0
Общее содержание серы, % масс.	0,012	0,011	0,010	0,009
Зольность, 10^{-4} % масс.	9	8,0	4,1	3,1
Низшая теплота сгорания, кДЖ/кг	43320	42650	42520	41680
Цетановое число	47	47	47	48

**В пробирке «Тест I» количество сероводорода в питательной среде без СВБ составляет 24 мг/л, «Тест II» – количество сероводорода в среде содержащей СВБ – 372 мг/л, а в «Тест III» показывает количество бактерий в питательной среде, взятой в качестве контрольного значения (10^8 клеток/мл)*

PROPİLENOKSİD FRAQMENTLİ 2,2,5,5-TETRAMETİLOLTSİKLOPENTANOLUN MÜRƏKKƏB EFİRLƏRİNİN SİNTEZİ VƏ ONLARIN MÜASİR VƏ PERSPEKTİV YAĞLARA AŞQAR, ƏLAVƏLƏR KİMİ TƏDQİQİ

H.N. Qurbanov, L.M. Yusifova, F.Ə. Quluzadə, M.M. Abdullayeva
AMEA akad. Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
E-mail: huseyngurbanov1948@gmail.com

Hazırda sürtkü yağlarının yüksək temperaturda ≥250^{0}C istifadəsi zamanı qarşıya arzuolunmaz problemlər çıxır: onların özlülük-temperatur, termooksidləşmə stabilliyi və yağlama xassələri xeyli pisləşir. Bütün bunların aradan qaldırılması yollarından ən səmərəlisi yağ molekulunun tərkibini dəyişməklə orada müxtəlif aktiv və polyar mərkəzlərin, β-hidrogeni olmayan 4-lü karbon atomlarının, tsiklik fraqmentlərin yaradılmasıdır. Bu baxımdan 2,2,5,5-tetrametiloltsiklopentanolun yuxarıda qeyd olunan tərkibli mürəkkəb efirlərinin sintezi və tədqiqi yüksək elmi və praktiki əhəmiyyət kəsb edir.

2,2,5,5-tetrametiloltsiklopentanolun propilenoksid fraqmentli efirləri məlum metodika üzrə 2 mərhələdə həyata keçirilmişdir: I mərhələdə 2,2,5,5-tetrametiloltsiklopentanol avtoklav şəraitində 150-160^{0}C temperaturda 5 saat ərzində spirt:propilenoksid nisbəti 1:6 və 1:10 olmaqla, katalizator olaraq NaOH istifadəsilə həyata keçirilmiş, II mərhələdə isə 2,2,5,5-tetrametiloltsiklopentanolun oksipropilen fraqmentli efirləri C_4-C_6 monokarbon turşuları ilə efirləşdirilmişdir.



harada ki, m=6-10, n=1-2, R= C_4H_9- ÷ C_6H_{13}-

Alınmış efirlərin fiziki-kimyəvi, özlülük-temperatur, termooksidləşmə stabilliyi öyrənilmişdir.Poliefirlərin çıxımı nəzəri çıxımın 65-72%-ni təşkil edir. Alınmış efirlər 100^{0}C-də 130,95÷150,12 mm^2/san özlülüyə, yüksək özlülük indeksinə (133-158) və alışma temperaturuna (320-350^{0}C) malikdirlər.

Efirlərin termooksidləşmə stabilliyinin öyrənilməsi nəticəsi olaraq məlum olunmuşdur ki, onlar 100^{0}C-də özlülük artımı 31-38 mm^2/san, turşu ədədi 2,86-3,38 mqKOH/qr, aluminium elektrodda korroziya AK-4 0,11-0,08 mq/sm^2, polad elektrodda ШХ-15 0,09-0,11 mq/sm^2, izooktanda həll olmayan çöküntü 0,185-0,219 % kütlə təşkil edir.

Bu efirlərin bəzilərinin yağlama xassələri də öyrənilmiş və yüksək nəticələr qeydə alınmışdır.

Beləliklə aparılan məqsədyönlü tədqiqatın yekunu olaraq propilenoksid fraqmentli 2,2,5,5-tetrametiloltsiklopentanolun yeni efirləri sintez olunmuş, onların fiziki-kimyəvi və istismar xassələri öyrənilmiş, müasir və perspektiv yağlara aşqar, komponent, bəzi hallarda isə xüsusi təyinatlı yağlar kimi tövsiyə olunur.

Onu da qeyd etmək vacibdir ki, bu cür birləşmələrin yanacaqlar və yağlara əlavəsi zamanı zərərli məhsulların alınmasının, onların ətraf mühitə atılmasının qarşısı alınır, ekoloji problemlərin aradan qaldırılmasına zəmanət verir.

ƏDƏBİYYAT

1. Мамедьяров М.А., Алиева Ф.Х., Гурбанов Г.Н. Синтетические смазочные масла (структура и свойства). М.: «Научный мир», 2017, 335 с
2. Mamedyarov M.A., Gurbanov H.N.,Gulizadeh F.A. Yusifova L.M. Synthesis of alkyl substituted polyesters of 2,2,6,6-tetramethylolcyclohexanol and investigation of them as perspectival lubricating materials // Processes Petrochemistry and Oil Refining Journal, 2020, №1, pp.71-79

TSİKLİK DİOLLARIN MÜXTƏLİF FUNKSİONAL TƏRKİBLİ EFİRLƏRİ DİZEL YANACAQLARINA AŞQAR VƏ ƏLAVƏLƏR KİMİ

H.N.Qurbanov, S.Q.Əliyeva, G.Z.Həsənova, E.Q.Quliyeva

AMEA-nın akad. Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu

E-mail: huseyngurbanov1948@gmail.com

Hazırda mövcud şəraitdə ekoloji vəziyyətin günü-gündən pisləşməsi, ətraf mühitin korlanması yeni, daha keyfiyyətli, zərərsiz yanacaq növlərinin yaradılması problemini gündəmə gətitirir. Bu nöqteyi-nəzərdən yeni funksional tərkibli mürəkkəb efir tipli birləşmələrin sintezi və onların yanacaqlara aşqar kimi yoxlanılması müəyyən elmi və praktiki əhəmiyyət kəsb edir.

Məhz deyilənlər nəzərə alınaraq tərəfimizdən tsiklik diol- 1,2(tsikloheks-4-en) dimetanolun (THDM) müxtəlif tərkibli efirləri sintez olunmuş, fiziki-kimyəvi, özlülük-temperatur və termooksidləşmə stabilliyi öyrənilmiş, dizel yanacaqlarına (Dİ) 0,04% əlavəsilə kompozisiyalar hazırlanmış və tədqiq edilmişdir.

THDM-un efirləri C_5-C_8 monokarbon turşuları ilə katalizator olaraq PTST iştirakında aşağıdakı sxem üzrə alınmışdır.



harada ki, R-C_5-C_8 karbon turşuları

Nümunələrin termooksidləşmə stabilliyi ЛСАРТ aparatında 120^0C-də 4 saat müddətdə (ГОСТ 9144-79), alışma temperaturu qapalı putada -ТВ3-ЛАБ-11 6350 ГОСТ üzrə, ASTDM 931SD2719 aparılmışdır.

Məlum olmuşdur ki, efirlərin əlavəsilə Dİ-nın termooksidləşmə stabilliyi xeyli yüksəlir: götürülmüş 6 nümünədə çöküntünün miqdarı 6,0 mq/100 ml-dən 0,96-0-a qədər azalır. Həmçinin koksəmələgətirmədə (10%) elə bir kəskin dəyişiklik baş vermir: 0,0025%-dən 0,0021%-ə enir.Qapalı putada alışma temperaturu 76^0C-dən 86^0C-ə yüksəlir, donma temperaturu mənfi $18,4^0$C-dən mənfi $25,8^0$C-yə enir. Mis lövhə üzərində aparılmış yoxlamalarda bir dəyişiklik müşahidə olunmamışdır.

Həmçinin ədəbiyyatdan o da məlumdur ki,efirlərin dizel yanacağının xassələrinə təsiri efirlərin aralıq radikal yaratması mexanizmi üzrə baş verir.

Göründüyü kimi kompozisiyaların xassələrində kəskin yaxşılaşma halları müşahidə olunur ki, bu da həmin efirləri dizel yanacaqlarına çoxfunksiyalı əlavələr kimi tövsiyə etməyə zəmanət verir.

Aparılan tədqiqat belə bir qənaətə gəlməyə imkan verir ki, bu efirlər hazırda sənayedə istifadə olunan ionol və ekranlaşmış fenol törəmələrindən böyük üstünlüyə malikdirlər və belə olan halda bunların tətbiqi həm ekoloji həm də iqtisadi cəhətdən çox səmərəli və effektlidir.

İşdə həmçinin efirlərin quruluşu ilə onların effektivlik dərəcəsi müqayisə olunaraq müəyyən qanunauyğunluqlar əldə olunmuşdur ki, bu da tədqiqatı məqsədyönlü və selektiv aparmağa imkan vermişdir.

ƏDƏBİYYAT

1. Яновский Л.С. Ежов В.М. и др. Отечественные и зарубежные смазочные масла для авиационных двигателей // Мир нефтепродуктов, 2012, №9, с.6-11
2. Mamedyarov M.A., Gurbanov H.N., Yusifova L.M. Esters of cyclic polyatomic alcohols as antioxidants to diesel fuels // Proceedings of the Azerbaijan National Academy of Sciences, 2020, № 3-4, pp. 28 – 33

ПРИМЕНЕНИЕ БРОМСОДЕРЖАЩИХ КРЕМНИЙОРГАНИЧЕСКИХ ОКСИРАНОВ В КАЧЕСТВЕ ПРИСАДОК К МАСЛАМ

О.В.Аскеров, В.А.Джафаров, Н.Т.Джафарова, Р.В.Асадов, А.О.Алиева

Институт полимерных материалов НАН Азербайджана

E-mail: askerov.oktay@mail.ru

Машины работают в тяжелонагруженных условиях. При скольжении сопряженные детали непрерывно изнашиваются и выходят из строя. Для решении этого вопроса используются различные непредельные кремнийорганические оксираны в качестве присадок к маслам. Они вступают в химическое взаимодействие с поверхностью металла, восстанавливая его окисный слой.

В связи с этим в настоящем исследовании ставилась задача использования некоторых кремнийорганических непредельных окисей (I-IX) в качестве присадок к маслу С-220 при трении стали, которые быстро восстанавливают окмсный слой на поверхности деталей.



I



II



III



(IV-IX)

$R=CH_3$, $R'=C_2H_5$(IV); C_3H_7(V); C_4H_9(VI); C_5H_{11}(VII); C_6H_5(VIII); $R=R'=C_2H_5$(IX)

Опыты проводились на четырехшариковой машине трения МТ-4 на воздухе в зависимости от введенного в качестве присадки к маслу С-220 кремнийорганического соединения, противоизносные свойства различаются. Из испытанных соединений

наличным противоизносным действием обладает масло С- 220 приведении в него соединений (IV-IX). Здесь при широком диапазоне изменения нагрузок наблюдается отсутствие заедания чистого масла. Повидимому, это связано с отсутствием эфирного кислорода в молекуле испытуемого бромсодержащего оксираносилана.

Таким образом, на основании проведенных исследований можно заключить, что 1-(γ-триэтилсилилпропил)-1-бромметил-1,2оксираноэтан с успехом может быть использован в качестве эффективной противоизной и антифрикционной присадки для масел типа С-220.

TERMODİFFUZİYA ÜSULU İLƏ KORROZİYAYA DAVAMLI ÖRTÜKLƏRİN ALINMASI VƏ TƏDQİQİ

S.A.Məmmədova, S.Ç.Verdiyev, A.S.Hüseynova, M.N.Adıgözəlova, L.Ş.Quliyeva

AMEA akad. M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu

E-mail: saadat.mammadova1954@mail.ru

Müasir dövrdə yüksək metal tutumlu sənaye sahələrində istehsal proseslərinin sərtləşdiyi şəraitində, metal konstruksiyaları korroziyadan, eroziyadan və digər fiziki- kimyəvi proseslər nəticəsində baş verən metal itkisindən mühafizə etmək üçün axtarışlar davam etdirilir. Istənilən istehsal prosesində istifadə edilən dəmir əsaslı poladlar aqressiv mühitlərdə termodinamiki baxımdan dayanıqlı olmayıb korroziyaya uğrayırlar. Bu prosesin qarşısını almaq üçün uzun illər poladları bəzi asan passivləşən, məsələn, xrom, nikel, titan, molibden və s. metallarla həcmi legirləməyə uğradırlar. Lakin bu metalların yer qabağındakı ehtiyatı məhdud olduğuna görə, həcmi legirləmə üsulu kifayət qədər bahalı bir üsul olmaqla yanaşı, heç də həmişə konstruktiv tələblərə cavab vermir.

Məlumdur ki, korroziya prosesi iki fazanın sərhəddində və (metal-elektrolit) olduqca nazik səth təbəqələrinin təmas xəttində baş verir. Ona görə də metalın aqressiv mühitlə (məs. elektrolitlə) təmasda olduğu səth təbəqəsinin korroziya müqavimətini artırmaqla metalı korroziyadan mühafizə etmək olar. Bu məqsədlə son 30 ildə tədqiqatçılar səthi legirləmə üsuluna üstünlük verməklə, poladları korroziya və eroziyadan mühafizə üsulunu təklif etmişlər. Üsulun mahiyyəti ondan ibarətdir ki, metal üzərində korroziyaya davamlı nazik (20-30 mkm) təbəqə formalaşdırmaqla onları mühafizə etmək mümkündür.

Bu üsulla metalları mühafizə etməyə cavab verən metodlardan biri termodiffuziya üsulu ilə onların səthində bəzi d-elementlərinin (Cr,Ni,Ti,Mo,Nb,W,V,Zr və s.) karbidlərini formalaşdırmaqdır.

Məlumdur ki, bəzi keçid elementləri aqressiv mühitlərdə yüksək korroziyaya davamlılıq göstərirlər.Ona görə də poladların səthində adı çəkiliən metalların karbidlərinin nazik təbəqəsini formalaşdırmaqla onları korroziyadan mühafizə etmək perspektivli olmaqla yanaşı həm də iqtisadi cəhətdən sərfəlidir.

Termiki diffuziya zamanı əsas fiziki proses diffuziya prosesidir ki, bunun nəticəsində kimyəvi tərkibinə, quruluşuna və xassələrinə görə ilkin təbəqədən fərqlənən diffuziya təbəqəsi əmələ gəlir. Qeyd olunan üsull adətən karbonlu və yüksək karbonlu poladları mühafizə etmək üçün istifadə olunur. Lakin azkarbonlu poladların səthlərində termodiffuziya yolu ilə karbid örtüyünün yaradılmasına həsr olunmuş elmi-tədqiqat işlərinə az rast gəlmək olur. Ona görə də bu işdə azkarbonlu PCD 32 çeşidli poladın səthində Cr-un karbidlərinin formalaşdırılmasının fiziki-kimyəvi xüsusiyyətləri tədqiq olunmuşdur.

Termodiffuziya prosesi 950^0C temperaturda diffundant kimi xrom ovuntusundan, aktivləşdirici kimi NH_4CI və inert əlavə kimi Al_2O_3 qarşığından ibarət olan şixtada 6 saat müddətində aparılmış, alınan örtüklərin rentgen faza difraktometrində (RFD) rentgeno-qramması və skan elektron mikroskopunda spektirləri çəkilmiş və səth təbəqələrinin faza və element tərkibi müəyyənləşdirilmişdir.

Rentgenoqrammadan aydın olmuşdur ki, alınan təbəqə əsas etibarilə xromun və dəmirin karbidlərindən və xrom oksiddən ibarətdir. SEM analizinin nəticələrinə görə səth təbəqəsi 86,9% xromun karbidlərindən 8,64% karbonitriddən 2,47% dəmirkarbiddən, qalanları isə Al və Si karbidlərindən ibarət olunmuşdur.

MODİFİKASİYA OLUNMUŞ HALLOİZİDLƏRLƏ TURBİN YAĞ FRAKSİYALARININ KATALİTİK KREKİNQ QAZLARI İLƏ ALKİLLƏŞMƏ PROSESİNİN TƏDQİQİ

G.Ə.Qasımova, Q.A.Hüseynova, G.S.Muxtarova, N.M.Əliyeva, S.Y.Rəşidova, N.F.Qafarova, İ.Ə.Hacıyeva

AMEA akad. Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu

E-mail: gulerqasimova78@gmail.com

Azərbaycan neftlərindən alınan baza yağları özlülük-temperatur xassələrinə görə fərqlənirlər (aşağı özlülük indeksli olması ilə). Buna görə də Azərbaycan neftlərindən aşağı donma temperaturuna malik yüksək özlülük indeksli (Öİ) yağların alınması yalnız karbohidrogenlərin quruluşunu dəyişdirməklə mümkündür. Baza yağlarının keyfiyyətini yaxşılaşdıran əsas istiqamət onların tərkibindəki parafin, naften və aromatik karbohidrogenlərini izoparafin və naften karbohidrogenlərinə çevirən kimyəvi proseslərin işlənib hazırlanmasıdır.

Yağ fraksiyalarının seolit tərkibli katalizatorlarda alkilləşmə prosesinin tədqiqi göstərdi ki, özlülük indeksinin yüksək dərəcədə artması katalitik krekinq qazlarının tərkibində maksimum miqdarda olefin karbohidrogenlərin olması və onların maksimum çevrilməsi zamanı baş verir. Bu zaman katalizator həmçinin əsas rol oynayır. Bu halda əvəzləyicilərin alkilnaftenlərdə və alkilaromatik karbohidrogenlərdə birləşməsi ilə yan alkil zəncirinin artması özlülük indeksini daha da yüksəldir. Aşağı özlülük indeksli – 32 olan distillat yağ fraksiyalarının alkilləşmə prosesində təbii halloizitlərdə tədqiqi maraq doğurdu.

Distillat turbin yağ fraksiyalarının katalitik krekinq qazları (olefinlərin miqdarı – 38,4 və 32,6 %) təbii halloiziddə alkilləşməsi 50-150°C temperatur intervalında aparılıb. Prosesdən sonra yağların özlülük indeksi 32-dən 55-68-ə qədər artıb. Alkilləşmə prosesini nisbətən aşağı temperaturda (50°C) və katalitik krekinq qazlarının tərkibində olefinlərin miqdarı 32,6% əvəzinə 38,4% olduqda özlülük indeksinin artması müəyyən edilib.

Alkilləşmə prosesinin katalizatoru Al metalı, CCl_4 və halloizid əsasında alınıb. Katalizatorların sintezi CCl_4-ün qaynama temperaturuna uyğun 76,7°C-də, komponentlərin Al:CCl_4 – 1:60÷80 kütləcə nisbətində aparılıb. Katalizatorun əmələ gəlmə vaxtı 7-10 saat təşkil edir. Lakin, katalizatorun yeni hissəsini hazırlayanda əlavə edilən 0,2-0,4% əvvəlki katalizator (inisiator kimi) alınma müddətini 2 saata qədər azaldır.

Alkilləşmə prosesində modifikasiya edilmiş halloizidi istifadə etmək üçün, əvvəlcə CCl_4-i axıdıb, hallozid və katalizator kristallarının qarışığını çəkib və lazımı miqdarda avtoklava əlavə edirik.

Katalizatorların alınması üçün tətbiq edilən halloizidin termiki xassələri tədqiq edilib və rentgen fazanın analizi aparılıb. Termoqravimetrik analizlərə əsasən müəyyən edilib ki, modifikasiya olunan halloizid sistemi Al+CCl_4 temperatur təsirindən ekzo- və endo- gedən prosesləri göstərən piklərin izlənilməsinə səbəb olur.

Halloizid+Al+CCl_4 katalizatorlarında tərkibində 43,47% olefinlər olan katalitik krekinq qazlarından istifadə etməklə oliqomerləşmə aparılıb.

Tədqiqatlardan göründüyü kimi turbin yağ fraksiyasının alkilləşmə prosesi modifikasiya edimiş seolit tərkibli halloizid+Al+CCl_4 katalizatorunda aşağı temperaturda daha effektivdir. Özlülük indeksinin artmasına aşağı (50°C) temperaturda nail olunub, belə ki, yağın özlülük indeksi 32-dən 84-ə qədər artıb.

Beləliklə, modifikasiya olunan halloizidin katalitik sistemi $Al+CCl_4$ halloizidin katalitik aktivliyini artırır. Bu zaman alkillatların kinematik özlülüyü və özlülük indeksinin artırılması izlənilir.

СУЛЬФИДЫ, СОДЕРЖАЩИЕ СЛОЖНОЭФИРНЫЙ ФРАГМЕНТ, В КАЧЕСТВЕ АНТИКОРРОЗИОННЫХ ПРИСАДОК К СМАЗОЧНЫМ МАСЛАМ И ИНГИБИТОРОВ КОРРОЗИИ МЕТАЛЛОВ

К.З.Гусейнов
Бакинский государственный университет
e-mail: qasimhuseynov@bsu.edu.az.

Известно, что одним из механизмов действия ингибиторов коррозии как в гетерогенных средах (углеводород-электролит), так и противокоррозионных присадок в смазочных маслах является - образование на поверхности металла защитной пленки, препятствующее воздействию агрессивной среды на металл.

Поэтому, основываясь на литературных данных, полученных при изучении электродонорных и противокоррозионных свойств различных сульфидов, обладающих противокоррозионными свойствами, можно предположить, что сульфиды, содержащие сложноэфирную группировку и улучшающие противокоррозионные свойства смазочных масел, будут проявлять и ингибирующую активность в электролитах.

Для выяснения указанных выше вопросов синтезирован ряд S-замещенных тиофенолов и эфиров меркаптоуксусной кислоты и изучены их противокорозионные и ингибирующие свойства.

Исследование влияния алкил-, арил- сульфидов, полученных на основе различных тиолов, на антикоррозионные свойства смазочных масел и впервые обнаружено, что органические соединения различных классов, содержащие в молекуле $-S-CH_2-COOR$ фрагмент по антикоррозионной эффективности намного превосходят сульфиды, не содержащие данный фрагмент.

Установлено, что указанные соединения при концентрации 0.5-1% устраняют коррозионность моторного масла М-11, одновременно улучшая антимикробные и смазывающие свойства последнего.

При изучение ингибирующих свойств алкил-, арил- сульфидов в в двухфазных средах: электролит-углевод выявлено, что исследуемые соединения обладают ингибирующими свойствами с различной степенью эффективности (68 – 96 %).

Среди испытанных соединений наибольшую ингибирующую эффективность в двухфазной ситеме: 0.04%-ного водного раствора уксусной кислоты – керосин, проявили гексил- и циклогескилбутоксикарбонил-метилсульфиды: 94% и 96.5%, соответственно.

Иследуемые соединения также показали высокую противокоррозионную эффективность (90 - 98%) в моторном масле М-11.

COMBİNED ACTİON OF METAL COMPLEXES OF CYCLİC THİOCARBAMİDES AS ANTİOXİDANT ADDİTİVES

T.A.Cavadzadeh[1], F.M. Chiragov[1], İ.A.Rzayeva[2], Ə.R.Sucayev[2]
[1] Bakı State University
[2]ANAS Institute of Chemistry of Additives
tahir.cavadzade1996@mail.ru

The chemistry of heterocyclic compounds synthesized on the basis of N-substituted thiocarbomides and its derivatives is today one of the most interesting and rapidly developing areas of modern organic chemistry.

Heterocycles are used as pharmacological preparations, plant protection chemicals, bioprotectors of fuels and lubricating oils, antioxidants, additives to polymeric materials to impart special properties to them. Along with this, N-substituted thiocarbamides have a wide spectrum of physiological activity. Among these compounds, antitumor antiviral antibacterial therapeutic active substances have been found.

Considering the above and in continuation of research in the field of synthesis and study of the antioxidant activity of N-substituted thiocarbomides [1-4], we carried out a targeted synthesis of metal complexes of cyclic thiocarbomides and established a relationship between their structures and antioxidant properties. The antioxidant properties of the synthesized compounds were studied in model reactions. Since the study of the mechanism of the antioxidant action of oxidation inhibitors under real conditions of oxidation of lubricating oils is very difficult, the antioxidant effect of the compounds synthesized by us was studied in the oxidation reaction of a model hydrocarbon-cumene, the oxidation mechanism of which was studied in detail. The study of cumene autoxidation in the presence of these compounds showed that they effectively inhibit the autoxidation process.

In order to establish the mechanism of the antioxidant action of the synthesized compounds, we studied the range of their reactions with cumene peroxide radicals and cumyl hydroperoxides.

Based on the results obtained, it was found that these compounds are inhibitors of the combined action, they terminate the oxidation chains by reaction with peroxide radicals and decompose hydroperoxides. In this regard, they are included in the class of combined acting antioxidants. A relationship has been established between the structures and the efficiency of the synthesized antioxidants.

References

1. В.М Фарзалиев, М.А Аллахвердиев, А.М Магеррамов, Н.А Ширинова,И.А Рзаева, А.З Халилова и др. // Журнал Прикладной Химии, 2001, Т.74 № 1, С. 5-10.
2. А.А Джавадова, А.М Магеррамов, И.А Рзаева, В.М Фарзалиев, М.А Аллахвердиев // Журнал При Химии, 2005, № 3 ,С. 44-46.
3. В.М Фарзалиев, А.А Джавадова, И.А Рзаева и др. Бакинская Международная Мамедалиевская Нефтехимическая Конференчия .2000 с. 89.
4. А.М Магеррамов, Г.Р Мехтиева, Р.Т Абдинбекова, М.М Курбанова, М.А Аллахвердиев// Вестника Бакинского Университета. 2002 № 3 С 5-10.

Qeyd: Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – Qrant NoEİF-ETL-2020-2(36)-16/11/4-m-11.

II BÖLMƏ

KOMPOZİSİON MATERİALLAR

MÜASİR TƏLƏBLƏRƏ CAVAB VERƏN PLASTİK SÜRTKÜLƏRİN YARADILMASI

V.M.Fərzəliyev, H.Ə.Cavadova, Ə.R.Sucayev
AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
www.aki05@mail.ru

Nanohissəciklərin sürtkü materiallarının keyfiyyətinə təsiri haqda dünya ədəbiyyatında verilən məlumatların təhlili göstərmişdir ki, nanohissəciklərin sürtkü tərkibində iştirakı onun damcı-düşmə temperaturunu artırmaqla yanaşı, korroziyaya, yeyilmə və siyrilməyə qarşı davamlılığını da artırır. Bunu nəzərə alaraq nanohissəciklərin (Cu, CuO, Cu_2O, Ti, TiO) miqdarının plastik sürtkünün keyfiyyətinə təsiri üzərində elmi-tədqiqat işləri aparılmışdır. Alınmış sürtkülərin damcı-düşmə temperaturuna mis-asetatın miqdarı müəyyən edilmişmişdir. Məlum olmuşdur ki, nanohissəciklərin miqdarı artdıqca müəyyən həddə qədər (4%-) sürtkünün damcı-düşmə temperaturu artır, sonrakı qatılıqlarda isə aşağı düşür. Başqa sözlə, mis nanohissəciyinin miqdarı 1%-dən 4%-ə qədər artdıqca 190°C-dən 208 ^{o}C-ə qədər artır, 5%-dən 6%-ə qədər isə sürtkünün damcı-düşmə temperaturu sürətlə 200 ^{o}C -dən 183 ^{o}C-yə qədər enir.

Elmi araşdırmalar nanohissəciklər saxlayan plastik sürtkülərin tərkibinin optimallaşdırılması istiqaməti üzrə də davam etdirilmiş və sürtkünün tərkibinə mis, mis-1 oksid, mis-2 oksid nanohissəciklərinin əlavə edilərək, onların təbiətinin və miqdarının sürtkü materialın keyfiyyət göstəricilərinə təsiri ətraflı tədqiq olunmuşdur. Belə ki çoxsaylı təcrübi araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, sürtkünün tərkibinə daxil edilən nanohissəciklərin miqdarının 2%-dən 6%-ə qədər artırılması ilə sürtkünün damcı-düşmə temperatunda baş verən dəyişiklik çox cüzidir. Tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, yüksək damcı-düşmə temperaturuna malik plastik sürtkünün alınması üçün götürülən nanomisin və mis asetatın optimal miqdarı uyğun olaraq 3.5-4% və 11-12.5% təşkil edir.

Sürtkülərin alınmasında baza komponenti kimi tətbiq edilən aşağı özlülüklü sənaye yağı İ-40A, işlənmiş avtomobil, dizel, kükürdləşdirilmiş pambıq və yarımsintetik yağlar sınaqdan keçirilmiş və sürtkünün alınmasının yeni şəraiti işlənib hazırlanmışdır. Bu üsulla alınan sürtkünün DDT, yeyilməyə və siyrilməyə qarşı davamlılığının daha yüksək olduğu təsdiqlənmişdir.

Bundan başqa aparılan təcrübələr nəticəsində işlənmiş avtomobil yağlarının tətbiqi ilə alınmış sürtkünün keyfiyyət göstəricilərinin İ-40A yağının göstəricilərindən üstün olduğu da müəyyən olunmuşdur. Sənaye yağı İ-40A və işlənmiş avtomobil yağlarının tətbiqi ilə alınmış sürtkülərin keyfiyyətinin ”Armatol-238”, R-416” və “Litol-24” sürtkülərindən üstün olduğu sübut edilmişdir.

Tədqiqatlar nəticəsində dispers mühit kimi istifadə olunan mineral yağ işlənmiş yarımsintetik təyyarə mühərriki yağı ilə əvəz olunaraq sınaqları aparılmış, onların miqdarının sürtkünün keyfiyyətinə təsiri tam aydınlaşdırılmış və optimal miqdarı müəyyən edilmişdir. Dispers faza kimi istifadə olunan mineral yağın 50%-ə bərabər olan optimal miqdarı tədqiq edilən sürtkünün keyfiyyət göstəricilərinin münasibdir.

Qeyd: Bu tədqiqatlar Azərbaycan Milli Elmlər Akademiyasının “Müasir tələblərə cavab verən plastik sürtkülərin yaradılması və istehsalın təşkili” adlı Elmi Tədqiqat Proqramı çərçivəsində yerinə yetirilmişdir.

AVTOTRAKTOR DİZELLƏRİ ÜÇÜN M-10В$_2$, M-10Г$_2$ TİPLİ MOTOR YAĞLARININ YENİ AŞQAR KOMPOZİSİYALARI

T.İ.Şamilzadə, A.Ə.Hüseynova,G.Q.Yusifzadə, T.A.Dadaşova, M.İ.Qasımova
AMEA akad. Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu
lab_djavadova@mail.ru

Müxtəlif növ sürtkü yağlarının, xüsusən avtotraktor dizellərində istifadə edilən yağların böyük əksəriyyətinin xaricdən gətirildiyini nəzərə alaraq, onların yeni analoqlarının yaradılması və istehsalının təşkili elmi - texniki, iqtisadi və strateji cəhətdən çox aktual edir.

Avtotraktor dizel mühərrikləri üçün motor yağlarının qrupuna Б, В$_2$, Г$_2$, В, Д qrup yağlar olmaqla М-8В$_2$, М-10В$_2$, Дп-11у, М-8Г$_2$, М-8Г$_2$к, М-10Г$_2$, М-10Г$_2$к, М-8ДМ, М-10ДМ, М-10ДК yağları daxildir. Avtotraktor dizel mühərrikləri üçün təyin edilən Д qrup yağlar yüksək gücləndirilmiş üfürmə ilə ağır şəraitdə işləyən sənaye traktorları, buldozerlər, tikinti maşınları və yükünü özü boşaldan avtotraktor dizelləri, eləcə də xarici istehsallı mühərriklər üçün müəyyənləşdirilmişdir.

Avtotraktor dizellərinin üfürmə və üfürməsiz, gücləndirilmiş və yüksək gücləndirilmiş şəraitdə istismarı onlarda istifadə edilən yağlara qoyulan tələblərin mütamadi olaraq artırılmasına səbəb olur. Belə ki, oksidləşməyə qarşı davamlıq xassəsinin sınaq müddətinin 50 saata qaldırılması, özlülük indeksinin 90 vahiddən yüksək olması, kül göstəricisinin aşağı salınması və s. tələblər yüksək keyfiyyətli aşqar kompozisiyasının yaradılmasını tələb edir.

Tərəfimizdən yerli və xarici baza yağlarının M-8, M-15, VHVI-4, MC-20 və aşqar paketlərinin – SAP-2055z, АМГ-3, OLOA-9999 tədqiqi ilə üfürmə və üfürməsiz iş şəraitində istismarı üçün M-10В$_2$ və gücləndirilmiş və yüksək gücləndirilmiş M-10Г$_2$ tipli motor yağlarının aşağıdakı tərkibdə sürtkü kompozisiyaları yaradılmışdır:

M-10В$_2$ tipli motor yağı
(Baza yağı M-10)
Detergent-dispersedici aşqar - AKİ -210B (metilen-bis-alkilfenolun formaldehid və AKİ-dietanolaminlə kondensləşməsi və bor turşusu ilə işlənməsi məhsulunun kalsium duzu),
Özlülük aşqarı Viscoplex-2-600 - polimetakrilat tipli aşqar,
Okdiləşməyə və korroziyaya qarşı ДФ -11 – dialkilditiofosfatın Zn duzu,
Yuyucu-dispersedici aşqar C-150 – И-20A yağında kalsium hidroksid və karbonatın kalsium sulfonatla stabilləşdirilmiş kolloid dispersiyası,
Köpüklənməyə qarşı - polimetilsiloksan ПМС-200A.

M-10Г$_2$ tipli motor yağı
(Baza yağı M-10)
SAP-2055z ,АМГ-3 -– xarici aşqar paketi,
Özlülük aşqarı Viscopol - polimetakrilat tipli aşqar,
Depressator АФК – alkifenolun kalsim duzu,
Köpüklənməyə qarşı aşqar - polimetilsiloksan ПМС-200A.

M-10В$_2$ və M-10Г$_2$ təcrübi yağ nümunələrinin fiziki-kimyəvi və istismar xassələrinin müəyyənləşdirən göstəricilərinin ГОСТ üzrə müsbət nəticələri – oksidləşməyə qarşı davamlığı (40 və 50 saat sınaq müddəti ərzində yaranan çöküntünün faizi 0,5%-dən aşağı), korroziya, yuyuculuq potensialı, yuyuculuq xassəsi və s. onların tətbiqi üçün tövsiyyəsinə əsas verir.

BENZİLAMİNLƏ FUNKSİONALLAŞDIRILMIŞ HİBRİDLƏŞMİŞ FENOLFORMALDEHİD OLİQOMERLƏRİNİN N-BUTİL EFİRLƏRİ EPOKSİ-FENOL KOMPOZİSİYA TƏRKİBİ KİMİ

M.N.Əmiraslanova, A.P.Əliyeva, Ş.R.Əliyeva, M.C.İbrahimova, R.Ə.Rüstəmov, F.A.Məmmədzadə, F.Y.Yusifzadə, P.E.İsayeva

AMEA akad. Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu

ms.shekhla@mail.ru

Xalq təsərrüfatının və sənayenin bir çox sahələrində istifadə olunan yüksək molekullu birləşmələrin müxtəlif çeşidləri arasında fenol və onun törəmələri əsasında oliqomerlər mühüm yer tutur. Bu sıradan olan birləşmələrin yüksək istismar göstəricilərinə malik olması onların müxtəlif təyinatlı materiallar kimi geniş tətbiqini müəyyənləşdirir. Çoxsaylı tətbiq sahələri arasında fenolformaldehid oliqomerləri (FFO) və ya onların alkid, poliefir, epoksid və s. kimi müxtəlif qatranlarla kompozisiyaları əsasında qoruyucu örtüklər xüsusi əhəmiyyətə malikdir. Bir çox elmi mənbələrdə FFO-ların bu təyinat üzrə effektli xüsusiyyətləri onların quruluş və funksionallığı ilə əsaslandırılır. Novolak və rezol tipli qatranların reaksiya qabiliyyəti bu baxımdan fərqli olub metilol qruplarının miqdarı və makromolekullarda yerləşməsindən asılıdır, bu qatranların hibridləşməsi vasitəsilə sonuncuların idarə edilməsi və tənzimlənməsi mümkündür. Azot saxlayan funksional qrupların oliqomer makromolekullarına daxil edilməsi isə həm funksionallığı artırmaqla bərkimə dərəcəsinin yüksəlməsinə, həm də metal səth üzərində adgeziya göstəricilərinə müsbət təsir göstərir.

Qeyd edilənləri nəzərə alaraq benzilaminlə funksionallaşdırılmış hibridləşmiş FFO-ların n-butil spirti ilə efirləşmə məhsullarının ED-20 markalı epoksid qatranı ilə örtük kompozisiyalarının fiziki-mexaniki xassələri tədqiq edilmişdir.

Hibridləşmiş oliqomerlərin sintezi məqsədilə novolak və rezol FFO-lar müvafiq olaraq turş və qələvi mühitlərdə fenolun formaldehidə 1:0,85 və 1:1,2 mol nisbətində alınmışdır, bu zaman oliqomerlərdən biri 1 mol fenola görə 0,1-0,4 mol miqdarında benzilamindən istifadə etməklə modifikasiya olunmuşdur. İkinci mərhələdə novolak və rezol tipli FFO-ların 1:2 və 2:1 kütlə nisbətində həlledicidə təkrar polikondensləşməsi həyata keçirilmiş, nəhayət, alınmış hibridləşmiş oliqomerlər üçüncü mərhələdə n-butil spirti ilə turş mühitdə efirləşdirilmişdir.

Sintez olunmuş efirləşdirilmiş FFO-ların ED-20 markalı epoksid qatranı ilə kompozisiyaları örtükəmələgətirici kimi sınaqdan keçirilmişdir. Kompozisiyaların tərkibində FFO-nun faizlə miqdarı 20-80% götürülmüş, bəzi hallarda 10 küt.%-i qədər polietilenpoliamindən bərkidici kimi istifadə edilmişdir. İlkin rezol və novolaklar əsasında kompozisiyalar qeyri-bircinsli örtüklər əmələ gətirdiyindən qənaətbəxş nəticələr alınmamışdır. Hibridləşmiş FFO-lar əsasında Cт-3 markalı polad lövhələrin səthində otaq şəraitində 24 saat quruma müddətində alınmış epoksi-fenol örtük kompozisiyalarının fiziki-mexaniki xassələri - zərbəyə davamlığı, elastikliyi, M-3-ə görə bərkliyi, adgeziyası müvafiq ГОСТ-lar üzrə təyin edilmişdir. Bərkidicidən istifadə olunduğu bir çox hallarda, əsasən ilkin rezol və ya novolakın tərkibində benzilaminin 1 mol fenola görə 0,3 moldan artıq miqdarından istifadə olunduğu zaman qarışığın strukturlaşmasına baxmayaraq, örtüyün bərkliyinin yüksəlməsinə səbəb olmuşdur (~1 ş.v.-ə qədər). Bir qayda olaraq hibridləşmiş oliqomerin efirinin epoksid qatranına kütlə nisbəti 3:2 optimal qəbul edilmişdir.

Analoji olaraq n-butil spirti ilə efirləşdirilmiş hibridləşmiş FFO-ların müxtəlif vəsfi və miqdari tərkibli nümunələri ilə epoksi-fenol örtük kompozisiyalarının fiziki-mexaniki xassələri tədqiq edilmiş, novolak və rezolun kütlə nisbətindən, sonunculardan hansının modifikasiya olunmasından, azotlu modifikatorun 1 mol fenola görə miqdarından, kompozisiyanın miqdari tərkibindən, bərkidicinin istifadə olunmasından və s. asılılıq qanunauyğunluqları öyrənilmiş, yüksək fiziki-mexaniki xassələrə malik olduğu müəyyən edilmişdir.

Qeyd etmək lazımdır ki, efirləşdirilmiş oliqomerlər əsasında örtüklər yüksək parlaqlığa malikdir, kompozisiyalar qeyri-polyar həlledicilərdə yaxşı həll olur, lakin efirləşdirmədən sonra son məhsulun tərkibində qalan n-butanolun artıq miqdarı boya və lak sənayesində geniş istifadə olunan həlledici olduğundan digər həlledicidən istifadə edilməsinə ehtiyac yaranmır.

Örtük kompozisiyaları metal avadanlıqların səthində qoruyucu örtüklər kimi tövsiyə edilir.

СИНТЕЗ АЗОТСОДЕРЖАЩИХ ГИБРИДНЫХ ФЕНОЛФОРМАЛЬДЕГИДНЫХ ОЛИГОМЕРОВ И ИХ ЭТЕРИФИКАЦИЯ Н-БУТАНОЛОМ

М.Н.Амирасланова, А.П.Алиева, Ш.Р.Алиева, Р.А.Рустамов, Ф.А.Мамедзаде, П.Э.Исаева

Институт нефтехимических процессов им. акад. Ю.Г.Мамедалиева НАН Азербайджана

ms.shekhla@mail.ru

Фенолформальдегидные олигомеры (ФФО) известны, как одни из первых синтетических высокомолекулярных соединений. Благодаря наличию реакционноспособных функциональных групп и фрагментов, гибкости управления процессами отверждения во время эксплуатации, по сей день представляет интерес их использование в качестве композиционных составов различного назначения, к примеру, клеевых, связующих, теплоизоляционных материалов, герметиков, пропиточных составов, защитных покрытий и т.д. [1-4].

Проведенные ранее исследования на примере этерифицированных н-бутанолом гибридных ФФО на основе модифицированных бензогуанамином резольных и новолачных ФФО [5,6] показали, что введение азотсодержащих функциональных групп и фрагментов в олигомерные макромолекулы положительно влияет на адгезионные свойства при применении их в качестве пленкообразующих составов. Также структурные изменения наряду с повышением функциональности способствуют образованию плотной олигомерной сетки, в результате чего достигаются высокие адгезия, эластичность, твердость и т.д.

Учитывая вышеизложенное, в настоящей работе приведены результаты исследований по синтезу функционализированных бензиламином ФФО и продуктов их этерификации н-бутанолом.

Процесс ведется в три стадии. В первой стадии получены ФФО резольного и новолачного типов при мольном соотношении фенола к формальдегиду 1:1.2 и 1:0.85 в щелочной и кислотной средах соответственно. При этом один из полученных олигомеров был модифицирован бензиламином в количестве 0.1-0.4 моль в расчете на 1 моль фенола. Во второй стадии проведена поликонденсация резольного и новолачного олигомеров в кислой среде (pH=3-4) в течении 3-4 часов. Массовое соотношение олигомера к растворителю составляет 1:1.5, что соответствует ~ 40 %-ному раствору смеси олигомеров в диоксане. Выделяемая во время поликонденсации вода отгонялась с помощью насадки Дина-Старка.

Полученные во второй стадии продукты этерифицированы н-бутиловым спиртом в кислой среде с последующей отгонкой тройной смеси бутанола, воды и остаточного от II стадии растворителя – диоксана – по известной методике. В результате получены бутанольные растворы этерифицированных ФФО красно-бурого цвета. Следует отметить, что отгонка избыточного н-бутилового спирта не представляет важности при их эксплуатации, ввиду возможности его применения в качестве растворителя для лакокрасочных материалов, что уменьшает расход

растворителя при получении пленкообразующих композиционных растворов. Как показали исследования, введение бутокси-групп в состав олигомерных макромолекул положительно влияет на растворимость олигомеров в неполярных растворителях (к примеру, в сольвенте), совместимость с другими смолами при получении композиций и на физико-механические показатели покрытий на основе последних: адгезию, эластичность, твердость, блеск и т.д.

Учитывая вышеизложенное, полученные олигомеры рекомендуются в качестве эпокси-фенольных композиционных составов. В настоящее время проводятся исследования по изучению физико-механических свойств покрытий на их основе.

СПИСОК ЛИТЕРАТУРЫ

1. Ashpina Olga. Formaldehyde, resin, plywood // The chemical Journal.– 2016.–№ 3.– pp. 24-30

2. Амирасланова М.Н., Мустафаев А.М., Ибрагимова М.Дж., Рустамов Р.А., Юсифзаде Ф.Ю., Исаева П.Э., Мамедзаде Ф.А., Алиева А.П. Исследование физико-механических свойств защитных покрытий на основе азотсодержащих моноалкил(C_8-C_{12})фенолформальдегидных олигомеров, привитых с соевым маслом // Журнал «Пластические массы».– 2018.– № 11-12.– стр. 47-50

3. Рудницкая Ю.Р., Панфилов Д.А., Лавров Н.А. Огнестойкие эпоксидно-новолачные пенопласты // Пластические массы.– 2020.– № 11-12.– стр. 41-44

4. Алиева А.П., Мамедзаде Ф.А., Амирасланова М.Н. Эпоксидно-фенольные покрытия // Журнал «Промышленное производство и использование эластомеров». –2018. – № 1.–стр. 8-13

5.Amiraslanova M.N. The covering composite materials based on ethers of hybridized phenol formaldehyde oligomers / Материалы 4-ой научно-практической конференции с международным участием на тему "Новые материалы, химические технологии и реагенты для промышленности, медицины и сельского хозяйства на основе нефтехимического и возобновляемого сырья".– г. Уфа.– 2017.– стр. 14-20

6.Амирасланова М.Н. Композиция на основе этерифицированного н-бутанолом гибридного фенолформальдегидного олигомера в качестве связующего для минерального наполнителя // Журнал «Перспективные материалы».– 2015.– №2– с.19-23

ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ИССЛЕДОВАНИЯ ДИНАМИЧЕСКИ ВУЛКАНИЗОВАННЫХ НАНОКОМПОЗИТОВ

Н.Т.Кахраманов, А.Д.Гулиев, С.С.Алиева, Г.Д.Гейдарова
Институт полимерных материалов НАН Азербайджана
najaf1946@rambler.ru

Для улучшения свойств полимеров, как правило, используют различные методы модификации, позволяющие в той или иной степени подойти к получению композитов с улучшением конкретных характеристик. Так, например, введение дисперсного наполнителя, пластификатора, стабилизатора или получение полимерных смесей, их физическая или химическая модификация позволяли в определенной степени подойти к получению композитов с заранее заданными свойствами. Использование нанонаполнителей, также, позволило внести новые понятия и теоретическую подоплеку к интерпретации надмолекулярной структуры и свойств нанокомпозитов [1].

Поистине революционными были исследования начатые под руководством профессора С.И. Вольфсона, который предложил, по сути дела, новый подход к

получению динамически вулканизованных композитов. Это направление исследований открывает новые возможности механо-химического синтеза композитов в процессе реакционной экструзии [2]. Вместе с этим, в литературе приводятся весьма скудные сведения относительно изучения вопросов, связанных с закономерностями фазовых переходов в динамически вулканизованных композитах на основе несовместимых полимерных смесей, в особенности при переходе из твердого в высокоэластическое и вязкотекучее состояния.

В связи с вышеизложенным, целью проводимых исследований являлось исследование термомеханических свойств динамически вулканизованных нанокомпозитов с учетом современных подходов при оценке их структурных особенностей и фазовых переходов.

Перед тем, как приступить к исследованию термомеханических свойств нанокомпозитов необходимо было, прежде всего, разобраться с вопросами, связанными с совместимостью смешиваемых полимерных компонентов. В данном случае, в качестве объекта исследования используются несовместимые полимерные смеси на основе РПП и СКН различных марок. В связи с чем, возникала необходимость использования компатибилизатора-совместителя, способного обеспечить смешиваемость компонентов смеси и их технологическую совместимость. С этой целью в качестве компатибилизатора использовали **Exxelor-** привитой сополимер полипропилена с малеиновым ангидридом **(ППМА),** введение которого даже при небольших его концентрациях способствует заметному улучшению свойств композиционных материалов [2]. Известно, что при смешении несовместимых компонентов смеси на надмолекулярном уровне образуется, явновыраженная двухфазная система. В задачу исследования входило добиться равномерного диспергирования наночастиц и компатибилизатора по всему объему полимерной смеси. Есть основание полагать, что основная роль **ППМА** должна заключаться в том, чтобы, равномерно распределяясь преимущественно в граничных зонах контакта эластомера с макроцепями РПП, способствовать формированию относительно небольших по размеру эластомерных фаз, при котором создаются благоприятные условия для смешиваемости и технологической совместимости полимерных компонентов смеси. Однако, простое смешение компонентов смеси не всегда может способствовать формированию необходимой структуры термоэластопласта. Экспериментально нами было установлено, что преимущественно этот процесс возможен при концентрации СКН в составе РПП не ниже 40%масс. Ранее, в работах [3] нами также был показан предполагаемый механизм процесса технологической совместимости смешиваемых разнополярных компонентов смеси, согласно которому свойства термоэластопластов в двухфазной системе формируются в зависимости от соотношения жестких и эластичных блоков РПП и СКН. При этом, жесткие блоки РПП после разбавления в среде эластомера и физического взаимодействия между собой образуют домены, которые выполняют своеобразную роль полифункциональных узлов, ответственных за прочность термоэластопластов. Отсутствие химических связей между жесткими блоками РПП способствуют сохранению текучести расплава при повышенных температурах, что имеет исключительно важное значение для обеспечения перерабатываемости термоэластопластов методами литья под давлением и экструзии.

Преимущество динамически вулканизованных композитов заключается в том, что при низких концентрациях перекисных сшивающих агентов межцепная сшивка происходит преимущественно в фазе СКН за счет большого числа двойных связей и соответственно метиленовых групп расположенных в α-положении к винильным группам. При более высоких концентрациях ПД межцепная сшивка протекает не только в дисперсной фазе СКН, но и в жестких доменах РПП по третичным углеродным атомам, что безусловным образом способствует образованию

густосетчатой пространственной структуры, предотвращающий возможность переработки сшитого термэластопласта на стандартных оборудованиях. Поэтому, в задачу исследования входило определение той минимальной концентрации ПД, при котором формируется структура динамически вулканизованного композита. В этой структуре сшивка протекает преимущественно по эластомерной фазе. В данном случае следует принять во внимание и сам наполнитель, представляющий собой наноразмерный бентонит. Роль наночастиц бентонита в данном случае заключается в усилении прочности нанокомпозита.

Для того, чтобы разобраться с особенностями структуры динамически вулканизованных нанокомпозитов представлялось интересным исследования термомеханических свойств проводить в два этапа. На первом этапе исследуется влияние концентрации наночастиц бентонита на закономерности фазовых переходов из одного состояния в другое. Далее, на втором этапе исследуется влияние концентрации ПД или серы на процесс вулканизации нанокомпозитов, в результате которого устанавливается та допустимая минимальная концентрация сшивающих агентов, которые обеспечивают возможность получения динамически вулканизованных нанокомпозитов, способных перерабатываться методами литья под давлением или экструзии.

1. Ашуров Н.Р., Долгов В.В., Садыков Ш.Г., Усманова М.М. Нанокомпозиты полимеры этилена, наполненные слоистыми алюмосиликатами, 2016. Ташкент: «Фан». АН Узбекистан.183с.
2. Вольфсон С.И. Термоэластопласты- конструкционные материалы нового поколения //Химия и бизнес.2001, №1, с.30-40.
3. Кахраманов Н.Т., Азизов А.Г., Осипчик В.С.,Мамедли У.М., Арзуманова Н.Б. Наноструктурированные композиты и полимерное материаловедение. //Пластические массы, Москва, 2016, №1-2, с.49-57.

НАНОКОМПОЗИТЫ ЭТО ПЕРСПЕКТИВНЫЕ КОНСТРУКЦИОННЫЕ ПОЛИМЕРНЫЕ МАТЕРИАЛЫ

И.В.Байрамова, С.С.Алиева, Г.Д.Гейдарова
Институт полимерных материалов НАН Азербайджана
najaf1946@rambler.ru

Полученные на основе нанокомпозитов полимерные материалы,, представляют большой интерес для практического использования в самых различных областях техники: машиностроении, сельском хозяйстве, автомобилестроении, судостроении, военной и военно-космической технике и т.д. Полимерные нанокомпозиты – это материалы, обладающие уникальным сочетанием свойств в сравнении с обычными дисперсно наполненными полимерными системами. Полимерные нанокомпозиты на основе алюмосиликатов слоистого типа, содержат молекулы полимера, внедренные в межслоевое пространство, образуя наполненные силикаты. В этом случае гидратированные ионы щелочных или щелочноземельных металлов оказывают положительный эффект нейтрализуя отрицательный заряд, которые несут изоморфные структуры, заменяя катионы Mg или Al, находящиеся внутри силиката. Внедрение полимерных молекул, приводящих к так называемым «гибридам включения», может проходить в ходе замены гидратированных молекул, содержащихся в межслоевом пространстве, молекулами полимеров, содержащих функциональные группы, обладающие ион-дипольным моментом [1].

Наибольшее внимание стало уделяться к таким наполнителям пластмасс как глина, монтмориллонит и т.п. Композиция полимер-глина делятся на три основных вида: стандартный композит, где глина действует как обычный наполнитель, интеркалированный нанокомпозит, состоящий из регулярных фрагментов полимера, находящихся между слоями глины, и деламинированный нанокомпозит, где слои толщиной порядка нанометра, распределены в матрице, образуя монолитную микромасштабную структуру. Последний тип представляет особый интерес, потому что предполагает максимальное взаимодействие полимера с глиной, делая поверхность слоев доступной для полимера. Это должно привести к самым серьезным изменениям в механических и физических свойствах.

Разработан ряд полимерных гранулированных минерализаторов (ПГМ) для кондиционирования воды ионами, кальция, магния, калия, натрия, серебра, сульфатами и хлоридами в замкнутых экологических объектах. Данные материалы представляют собой цилиндрические гранулы диаметром 1-2 мм и длиной 2-8 мм и состоят из комплекса измельченных минеральных солей и полиэтилена низкого давления [2].

В связи с возрастанием требований к деталям автомобилей и с учетом эксплуатационных свойств их использования специалисты предпочитают использование стеклонаполненных материалов на основе полипропилена. В сравнении с минералонаполненными композициями полипропилена их отличает повышенная жесткость, теплостойкость и ударная прочность. Стеклонаполненный полипропилен типа «Армлен» нашел широкое применение в таких ответственных изделиях, как корпусные и каркасные детали системы отопления, нагруженные крыльчатки вентиляторов охлаждения и отопления, а также в деталях, работающих в контакте с горячим антифризом. К последним относятся бачки радиаторов охлаждения двигателя и отопителя и отводящие патрубки к ним, пластмассовый переходники под шланги, кран отопителя [3].

Одним из вариантов рыночного использования отходов резиновых изделий, как источника вторичного сырья, является их измельчение различными способами и применение полученной крошки в составе композиционных материалов как неактивного наполнителя. На основе смеси термопластичного полимера и измельченной резины были получены новые композиционные материалы – резинопласты.

Введение в термопластичные полимеры жестких наполнителей приводит к ухудшению деформационных свойств материала. Показано, что с ростом содержания минеральных частиц в полимерной матрице наблюдается смена механизма деформирования от пластического, посредством распространения шейки, к квазихрупкому – разрушению образца при образовании шейки. Предельная степень наполнения, при которых происходит утрата материалом пластических свойств, зависит от способности матрицы к ориентационному упрочнению.

В последние годы были достигнуты определенные успехи в области разработки теории и технологии получения композиционных материалов, дисперсных и армирующих средств, теории неоднородных сред – оптимального армирования, физики и механики деформационного упрочнения и прочности композиционных материалов с широким спектром строения, свойств и областей применения [3].

На основании вышеизложенного можно констатировать, что минеральные наполнители вносят существенный вклад в направлении улучшения ряда качественных показателей промышленных полимеров. Разработка и исследование полимерных композитных материалов позволяет получить материалы конструкционного назначения с заданными эксплуатационными свойствами.

Литература:

1. Берлин А.А., Вольфсон С.А., Ошман В.Г. Принципы создания композиционных материалов. М.: Химия, 1990. 240 с.
2. Кахраманов Н.Т., Азизов А.Г., Осипчик В.С., Мамедли У.М. Наноструктурированные композиты и полимерное материаловедение (обзор). //Пластические массы. 2016, №1-2, с.49-57.
3. Иванчев С.С., Озерин А.Н. Наноструктуры в полимерных системах. //Высокомолекул.соед.2006, т.48,№8Б, с.1541-1544.

СИНТЕЗ ТРИЭПОКСИКЕТОНОВ И ИХ МОДИФИЦИРУЮЩИХ СВОЙСТВ ДЛЯ СМОЛЫ ЭД-20.

Н.Х.Гусиев, А.М.Гараманов, С.Н.Аллахвердиева, М.М.Ибрагимова , Х.А.Мамедова, У.А. Худиева

Институт полимерных материалов НАН Азербайджана

husiyev2019@mail.ru

